QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 085 (5805) **11 may** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qəpik**

# "Bütün dövrlərdə Heydər Əliyev öz xalqına ləyaqətlə xidmət edib"

*Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 15 illiyinə həsr olunmuş təntənəli mərasim keçirilib*

Səh 8



# Dahi şəxsiyyət, müdrik insan, əbədi lider!

*Prezident İlham Əliyev Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib*




***Mayın 10-u müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü günüdür.***



Yaşarı dünyasından sonra xalqın yaddaşında qalmaq hər kəsə nəsib olmur. Xalq yalnız sevdiklərini yadda saxlayır və yaşadır. Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq. Çünki bu dahi insan xalqımız qarşısındakı xidmətləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş böyük azərbaycanlıdır.

İstedadlı insanlar, böyük şəxsiyyətlər üçün zaman və məkan məhdudiyyəti yoxdur. Onlar heç bir zaman və məkana sığmırlar. Bu, əsrlərin sınağından çıxan və öz təsdiqini tapan bir fikirdir. Zaman onu da sübut edir ki, dünyanın tarixi böyük şəxsiyyətlərin tərcümeyi-halıdır. Heydər Əliyevin tərcümeyi-halı isə Azərbaycan tarixidir. Çünki onun hakimiyyətdə olduğu illərdə Azərbaycana bəxş etdiklərini tarix boyunca heç bir hakimiyyət sahibi etməyib. O, Azərbaycan salnaməsində təkrarolunmaz rəhbər, qüdrətli dövlət başçısı, fədakar insan kimi qalıb. Çünki o, Azərbaycanı dünyaya tanıdıb, dünyanı Azərbaycana gətirib. O, Azərbaycanı qorumaq üçün yaşayıb, Azərbaycanı yaşatmaq üçün qurub-yaradıb. Heydər Əliyevin parlaq dühası onu Azərbaycan xalqının Ümummilli Liderinə, üstəlik dünya siyasətinin nəhənglərindən birinə çevirib. Odur ki, Azərbaycan xalqı bu böyük övladı ilə haqlı olaraq da öyünür.

"Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olub", - deyən Heydər Əliyev istər sovet dönəmində, istərsə də müstəqillik illərində qüdrəti və zəkası, böyük müdrikliyi və uzaqgörənliyi ilə Azərbaycanı dünya məmləkətləri sırasında layiqli yerə çıxarıb. O, keçmiş SSRİ-nin ən nüfuzlu siyasətçilərindən biri idi. Bu səbəbdən də "Azərbaycan sənin üçün kiçikdir, sən ittifaqa lazımsan", - deyə onu Moskvaya dəvət etdilər. Amma burada o, həm də onu gözü götürməyən məkrli qorbaçovların xəyanətinə tuş gəldi, Vətəninə döndü. Bu qayıdış isə daha möhtəşəm oldu. Ümidlə, inamla yolunu gözləyən xalqının arzusu ilə yenidən hakimiyyətə gəldi. Milyonları öz ətrafında, bir bayraq altında birləşdirə bildi. Sözünün qüdrəti ilə hər kəsi inandırdı. Əməlləri ilə sözünü gerçəyə çevirdi.

**Ardı Səh. 3**

# Dahi şəxsiyyət, müdrik insan, əbədi lider!

*Prezident İlham Əliyev Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib*







Əvvəli-Səh-2

Azərbaycan dövlət quruculuğu prosesini sürətlə keçdi. Çünki ulu öndər Heydər Əliyevin yaratdığı təməl prinsiplər düzgün yerinə yetirilmişdi. Dahi siyasi xadimin xidmətləri sayəsində dövlətçilik, azərbaycançılıq, dünyəvilik, müasirlik kimi ideyalar cəmiyyətin dünyagörüşü sisteminin ayrılmaz hissəsinə çevrildi, müasir Azərbaycanın mövcudluğunun və inkişafının ideya əsasını təşkil etdi. Heydər Əliyev öz fəaliyyəti ilə Azərbaycanda demokratik cəmiyyətə keçid mexanizmini yaratdı, müstəqil və demokratik cəmiyyət formalaşdırmaq kimi tarixi missiyanın öhdəsindən uğurla gəldi. Ulu Öndər güclü dövlət, səmərəli iqtisadiyyat və azad insan amillərinə əsaslanan konsepsiyası ilə müstəqil Azərbaycanın tarixində qızıl səhifələr yazdı. Heydər Əliyevin quruculuq salnaməsi azərbaycanlıların həyatına birdəfəlik daxil oldu. Onun Azərbaycana rəhbərlik illəri milli intibah dövrü kimi əbədiləşdi.

Meydana silahsız gələn bu insan qüdrətli Azərbaycan Ordusu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, ölkəmizdə böyük neft erasının əsasını qoydu. Azərbaycanın müasir tarixində misilsiz işlərə imza atdı. Heydər Əliyev dövrü Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Türk dünyasının bu böyük oğlu güclü dövlətçilik məktəbi də yaratdı. Heydər Əliyev ən mürəkkəb ziddiyyətli tarixi proseslərin gərdişindən bacarıqla baş çıxaran, ən çətin vəziyyətlərdə belə təmkinini itirməyən və dünyadakı geosiyasi dəyişiklikləri realistcəsinə qiymətləndirib mənsub olduğu xalqın, ölkəsinin çıxarlarını praqmatik ağılla və təcrübəsi ilə dəqiqliklə hesablayan bir lider idi.

AZƏRTAC xəbər verir ki, xalqımızın xilaskar oğlunun doğum günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Ümummilli Liderin məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəldilər.

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, Ulu Öndərin xatirəsini ehtiramla andı.

Azərbaycan Respublikasının dövlət himni səsləndi. Sonra dövlətimizin başçısı və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini ehtiramla anaraq məzarı üzərinə gül dəstələri qoydular. Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri düzüldü.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət olunması mərasimində Baş nazir Novruz Məmmədov, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, nazirlər, komitə və şirkət rəhbərləri, Milli Məclisin deputatları iştirak ediblər.



səs

www.sesqazeti.az
facebook Ses Media Holding

11 may 2019-cu il

# Prezident İlham Əliyev görkəmli bəstəkar Arif Məlikov ilə vida mərasimində iştirak edib



Mayın 9-da Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında görkəmli bəstəkar, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, SSRİ və Azərbaycan Respublikasının Xalq artisti, Dövlət və Heydər Əliyev mükafatları laureatı Arif Məlikovla vida mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Mərasimdə çıxış edən mədəniyyət naziri Əbülfəs Qarayev Arif Məlikovun ömür yolu və bənzərsiz yaradıcılığı barədə danışıb. Qeyd edilib ki, böyük bəstəkar Qara Qarayevin tələbəsi olmuş Arif Məlikov geniş yaradıcılıq diapazonu ilə seçilən sənətkar idi. O, öz istedadını musiqimizin müxtəlif janrlarında sınayaraq instrumental, vokal, simfonik, xor və kamera əsərləri yaratmış, həm kino, həm teatr sənətinə layiqli töhfəsini vermişdir. Nazim Hikmətin librettosuna yazdığı "Məhəbbət əfsanəsi" baleti bəstəkara dünya şöhrəti qazandırıb. Balet ilk dəfə 1961-ci ildə Sankt-Peterburq Akademik Mariinski Teatrında tamaşaya qoyulub.

Arif Məlikov səkkiz simfoniyanın, "Nağıl", "Vətən", "Metamorfozlar", "Axırıncı aşırım" simfonik poemalarının, süitaların, "Bu torpaqda iki nəfər", "İki qəlbin dastanı" baletlərinin, "Torpağın səsi" kantatasının, "Dalğalar" operettasının, Nazim Hikmətin sözlərinə üç romans silsiləsinin, fortepiano və orkestr üçün konsertin, kamera-instrumental əsərlərin, kinofilmlərə, teatr tamaşalarına musiqinin, bir çox mahnıların müəllifidir. Bəstəkarın musiqisi bu gün dünyanın bir çox ölkələrinin möhtəşəm teatr və konsert salonlarında, dövlət tədbirlərində, mədəniyyət günlərində, beynəlxalq musiqi festivallarında səslənir.

Vurğulanıb ki, Arif Məlikovun taleyinə yazılmış bir ömrün əfsanəsi yarım əsrdən çoxdur musiqisevərləri öz cazibəsində saxlamaqdadır. Bəstəkarın ümummilli lider Heydər Əliyevə ithaf etdiyi "Əbədiyyət" adlı 8-ci simfoniyası Azərbaycan musiqi mədəniyyətinin növbəti sənət zirvəsidir.

Dahi Üzeyir Hacıbəyli və Qara Qarayevin bəstəkarlıq məktəbinin davamçısı olan ustad sənətkar uzun illər ərzində Bakı Musiqi Akademiyasının bəstəkarlıq kafedrasının müdiri kimi bütün səy və bacarığını yeni bəstəkarlar nəslinin yetişdirilməsinə sərf edib. Nazir onu da qeyd edib ki, Arif Məlikov fəal vətəndaşlıq mövqeyi ilə xalqın böyük hörmətini qazanmış ictimai xadim olub. 1990-cı ilin 20 Yanvar hadisələri zamanı Azərbaycan xalqının haqq səsini dünyaya çatdıranlar arasında Arif Məlikov da var idi.

Bildirilib ki, bəstəkarın Azərbaycan musiqi mədəniyyətinin inkişafı və təbliği sahəsində uzunmüddətli səmərəli fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilib. Arif Məlikov 1965-ci ildə respublikanın Əməkdar incəsənət xadimi, 1978-ci ildə Xalq artisti, 1986-cı ildə SSRİ Xalq artisti fəxri adlarına, 1986-cı ildə Azərbaycanın Dövlət mükafatına, 1998-ci ildə "İstiqlal", 2013-cü ildə "Heydər Əliyev", 2018-ci ildə "Şöhrət" ordenlərinə layiq görülüb. Nazir daha sonra deyib: "Arif Məlikov Vətəninə, elinə-obasına bağlı bir insan idi. O, musiqi ilə yaşayır, musiqi ilə nəfəs alırdı. Lakin dünya heç kəs üçün əbədi deyil. Ancaq yaxşı ad və unudulmaz xatirələr insanı hər zaman yaşadır. Böyük bəstəkar, pedaqoq, səmimi və təvazökar insan Arif Cahangir oğlu Məlikovun xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır".



Vida mərasimində çıxış edən Bakı Musiqi Akademiyasının rektoru, Xalq Artisti Fərhad Bədəlbəyli Arif Məlikovun onun üçün doğma bir insan olduğunu söyləyib. Bildirib ki, bəstəkarın Nazim Hikmətin sözlərinə yazılmış romansları əsl şedevrdir.

Rektor deyib ki, Arif müəllim əsl ziyalı kimi Bakı Musiqi Akademiyasında gənc musiqişünasların, bəstəkarların yetişməsinə böyük zəhmət sərf edib. Arif Məlikov dünyasını dəyişsə də, yazdığı əsərlər hər zaman böyük salonlarda səslənəcək, nəinki müəllifinə, həm də mənsub olduğu millətə şöhrət gətirəcək.

Arif Məlikovun dünyasını dəyişməsini Azərbaycan elmi üçün də böyük itki hesab edən Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli bildirib ki, o, böyük akademik düşüncəyə malik bir musiqi xadimi idi. Hər zaman Azərbaycan elmini ləyaqətlə təmsil edən Arif Məlikovun yeni sənətşünaslar, musiqişünaslar nəslinin yetişməsində müəllim, elmi məsləhətçi kimi xüsusi rolu olub. O, Azərbaycan musiqi mədəniyyəti tarixində yüksək zirvələr fəth edib. Heç tərəddüd etmədən demək olar ki, Üzeyir Hacıbəylinin "Arşın mal alan", Qara Qarayevin "İldırımlı yollarla", Fikrət Əmirovun "Min bir gecə" əsərlərindən sonra Arif Məlikovun "Məhəbbət əfsanəsi" Azərbaycan xalqına və musiqi mədəniyyətinə dünya şöhrəti qazandırıb.



Vida mərasimində Azərbaycan Bəstəkarlar İttifaqının katibi, professor Zemfira Qafarova və Arif Məlikovun tələbəsi Ceyhun Allahverdiyev çıxış edərək görkəmli bəstəkarın bənzərsiz sənət dünyasından söhbət açıb, onunla bağlı xatirələrini bölüşüblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı veriblər. Arif Məlikovun ailə üzvləri mərhumun xatirəsinə göstərilən ehtirama görə dövlətimizin başçısına və birinci xanıma minnətdarlıqlarını bildiriblər. Vida mərasimindən sonra görkəmli bəstəkarın cənazəsi son mənzilə yola salınıb. Mərhum I Fəxri xiyabanda torpağa tapşırılıb. Allah rəhmət eləsin!

# Azərbaycan dövləti ekologiyanın və ətraf mühitin mühafizəsinə xüsusi diqqətlə yanaşır

*Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunan ağacəkmə aksiyasında iştirak edib*







Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Zığ dairəsi-Heydər Əliyev Beynəlxalq Aeroportu avtomobil yolunun 28-ci kilometrliyində salınan yaşıllıq sahəsində ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunan ağacəkmə kampaniyasında iştirak ediblər. AZƏRTAC xəbər verir ki, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev "Keçmiş yodbrom zavodunun çirklənmiş ərazilərinin təmizlənməsi" və "Heydər Əliyev Beynəlxalq Aeroportunun yaxınlığındakı çirklənmiş ərazilərin təmizlənməsi" layihələri barədə Prezident İlham Əliyevə məlumat verdi.

Qeyd edək ki, dövlətimizin başçısının tapşırığına əsasən Suraxanı rayonunda keçmiş yodbrom zavodunun ərazisində lay suları, duz, yod və digər tullantılarla çirklənmiş 67 hektar sahənin təmizlənərək bərpa edilməsi, kollektor-drenaj sisteminin qurulması işləri uğurla icra olunub. Ümumilikdə, indiyədək bu ərazidə yerli iqlim şəraitinə uyğun 50 mindən çox müxtəlif növ ağac əkilərək böyük yaşıllıq zolağı salınıb.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri ərazidə ağac əkdilər.

Ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə keçirilən ağacəkmə aksiyasında 4 hektar ərazidə, ümumilikdə, 3250 ağac əkildi. Ağaclar əraziyə çəkilmiş müasir, avtomatlaşdırılmış damcılı suvarma sistemi vasitəsilə suvarılır. Suvarma üçün su isə Hövsan Aerasiya Stansiyasından götürülür və təmizləyici qurğularda təmizləndikdən sonra suvarmaya ötürülür. Damcılı suvarma sisteminin elektrik enerjisi ilə təchizatı Suraxanı Günəş Elektrik Stansiyası hesabına təmin ediləcək.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aksiyada iştirak edən gənclərlə görüşdülər. Dövlətimizin başçısı gənclərə ekoloji durumun yaxşılaşdırılması ilə bağlı gördüyü işlərə görə təşəkkürünü bildirdi. Azərbaycan gənclərinin çox önəmli sosial-ekoloji layihələr icra etdiyini deyən dövlətimizin başçısı Bakının daha da gözəlləşdiyini, yaşıllaşdığını vurğuladı.

Azərbaycan dövləti ekologiyanın və ətraf mühitin mühafizəsi məsələsinə həmişə xüsusi diqqətlə yanaşır. Ölkəmizin zəngin flora və faunasının qorunması, ekoloji durumun daha da yaxşılaşdırılması, Bakının yaşıllıqlar şəhərinə çevrilməsi istiqamətində ulu öndər Heydər Əliyev bütün dövrlərdə çox böyük işlər görüb. Ümummilli Liderin əsasını qoyduğu ənənə bu gün Prezident İlham Əliyev tərəfindən ardıcıl şəkildə davam etdirilir. Təsadüfi deyil ki, Azərbaycanda reallaşdırılan milli inkişaf strategiyasının prioritet sahələrindən biri də ətraf mühitin mühafizəsini, həmçinin insanların sağlam təbii şəraitdə yaşamasını ən yüksək səviyyədə təmin etməkdir. Dövlətimizin başçısı tərəfindən 2010-cu ilin ölkədə "Ekologiya ili" elan edilməsi isə bunun bariz nümunəsi olmaqla yanaşı, bir daha sübut edir ki, Azərbaycanda ekoloji siyasətə xüsusi diqqət ayrılır.

Prezident İlham Əliyev neftlə və digər istehsalat tullantıları ilə çirklənmiş ərazilərin, lay suları altında qalan torpaqların ekoloji vəziyyətinin yaxşılaşdırılmasına da xüsusi diqqətlə yanaşıb. Əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılması ilə bağlı ölkədə ciddi əməli işlər görülüb, milyonlarla ağac əkilib, yeni park və xiyabanlar salınıb, yaşıllıqların miqyası isə ildən-ilə daha da artırılıb. Bütün bu məqsədyönlü layihələr ətraf mühitin qorunmasına, xüsusilə də vətəndaşların sağlam mühitdə yaşamasına xidmət edir.

Birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da ölkəmizdə yeni yaşıllıqların salınmasına və mövcud yaşıllıq sahələrinin qorunmasına xüsusi diqqət yetirir. Bu məsələdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü və dəstəyi ilə həyata keçirilən layihələrin də mühüm rolu var.

Müxtəlif vaxtlarda icra olunan ekoloji layihələr Azərbaycanın bütün regionlarını əhatə etməklə, ümumilikdə ölkəmizin ekoloji vəziyyətinin sağlamlaşdırılmasına böyük töhfələr verir. Bu gün Azərbaycanın hər yerində vətəndaşların iştirakı ilə ağacəkmə aksiyaları keçirilir. Bu işlərin görülməsində, yaşıllıqların salınmasında, şəhərlərimizdə və rayonlarımızda təmizlik işlərində hər bir sakin fəal iştirakı ilə seçilir. Təsadüfi deyil ki, hazırda Azərbaycanda ekologiyanın qorunması, əhalinin sağlamlığının təmin edilməsi istiqamətində görülən işlər bir çox ölkələrə nümunədir.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

11 may 2019-cu il

# Prezident İlham Əliyev 9 May - Qələbə Günü münasibətilə Bakıda keçirilən mərasimdə iştirak edib



***İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin 74-cü ildönümü münasibətilə mayın 9-da Bakıda təntənəli mərasim keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.***

Azərbaycan faşizm üzərində tarixi Qələbəyə mühüm töhfələr verib. Bu şanlı Qələbədə böyük payı olan Azərbaycan xalqı cəbhəyə 600 mindən çox oğul və qızını yola salıb. Onların təxminən yarısı döyüş meydanlarından geri qayıtmayıb. Müharibə illərində göstərdikləri igidliyə görə 130-dan çox Azərbaycan vətəndaşı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib. Azərbaycanlı çağırışçı və könüllülərdən formalaşdırılan 77-ci, 223-cü, 336-cı, 402-ci və 416-cı milli atıcı diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib. Xalqımızın qəhrəman övladları Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Simferopol, Odessa və irili-xırdalı digər yüzlərlə yaşayış məntəqəsi uğrunda rəşadətlə döyüşüblər. Qəhrəman azərbaycanlılar Polşa, Çexoslovakiya, Yuqoslaviya və digər ölkələrin azad olunmasında da yaxından iştirak ediblər. Partizan hərəkatında iştirak edən soydaşlarımızın da qəhrəmanlıq nümunələri saysız-hesabsızdır. İkinci Dünya müharibəsində şərəfli döyüş yolu keçən Azərbaycan övladlarının heç vaxt yaddaşlardan silinməyən qəhrəmanlıq və şücaəti gənc nəsil üçün əsl vətənpərvərlik nümunəsidir. Xalqımız faşizmə qarşı müharibədə döyüş meydanları ilə yanaşı, arxa cəbhədə də əsl əzmkarlıq nümayiş etdirib. İkinci Dünya müharibəsində Qələbənin qazanılmasında Bakı nefti əvəzsiz rol oynayıb. 1941-1945-ci illər müharibəsi zamanı Sovet İttifaqının sərf etdiyi neftin 70 faizindən çoxu, benzinin 80 faizi, motor yağlarının isə 90 faizi Azərbaycanın payına düşüb. Azərbaycan Berlinin alınması zamanı Almaniya səmasında uçan 7 min hərbi təyyarənin yanacaq təchizatında mühüm rol oynayıb. Xalqımız cəbhəyə 7 tondan çox donor qanı göndərib, döyüşən ordunun ərzaq və isti geyimlə təchizatında fəal mövqeyi ilə seçilib. Azərbaycan faşizm üzərində Qələbə naminə bütün imkanlarını maksimum səfərbər edib. Ümummilli lider Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə müharibə veteranlarının problemlərinə xüsusi diqqət yetirib, onlara hərtərəfli qayğı ilə yanaşıb və sosial məsələlərinin həlli istiqamətində mühüm addımlar atıb. Məhz Ulu Öndərin ədaləti uca tutması sayəsində İkinci Dünya müharibəsi iştirakçılarının mənəvi haqları müstəqilliyin ilk illərində özlərinə qaytarılıb və 1994-cü ildən başlayaraq Azərbaycanda 9 may - Qələbə Günü qeyd olunur. Ümummilli Lider müharibə veteranlarını "Xalqımızın qızıl fondu" adlandırırdı. Ulu öndər Heydər Əliyevin bu sahədəki siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev İkinci Dünya müharibəsinin ağır və çətin sınaqlarından keçmiş veteranların qayğılarına həssaslıqla yanaşır.

Qələbə bayramı ərəfəsində Prezident İlham Əliyevin müharibə veteranlarına qayğının artırılması, onların sosial müdafiəsinin daha da möhkəmləndirilməsi ilə bağlı sərəncamlar imzalaması artıq ənənə halı alıb. Azərbaycan Prezidentinin 2019-cu il 23 aprel tarixli Sərəncamı ilə İkinci Dünya müharibəsinin iştirakçılarına 1 000 manat məbləğində, Böyük Vətən müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 500 manat məbləğində birdəfəlik maddi yardım verilib. Respublikamızda müharibə veteranlarına dövlət qayğısının artırılması ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 7 may tarixli Sərəncamına əsasən isə Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının maddi-texniki bazasının gücləndirilməsi, habelə Təşkilatın fəaliyyəti ilə əlaqədar cari məsələlərin həlli və nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinin təmin olunması üçün 2019-cu ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Veteranlar Təşkilatına 300 min manat ayrılıb. Bütün bunlar bir daha təsdiqləyir ki, müharibə veteranlarına hərtərəfli qayğı və diqqət Azərbaycanda dövlət siyasətinin başlıca prioritetlərindən biridir.

İkinci Dünya müharibəsinin veteranları xalqımızın fəxridir. Onların müharibə illərində göstərdiyi qəhrəmanlıq bu gün də böyük hörmətlə xatırlanır, həlak olan soydaşlarımızın xatirəsi ehtiramla yad olunur. Böyük Qələbənin qazanılmasından 74 il keçsə də, İkinci Dünya müharibəsində misilsiz şücaət göstərmiş xalqımızın xidmətləri heç vaxt öz əhəmiyyətini itirmir.

Prezident, Ali Baş Komandan İlham Əliyev iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun abidəsi önünə əklil qoydu, İkinci Dünya müharibəsində misilsiz qəhrəmanlıqlar göstərən cəsur sərkərdənin xatirəsini ehtiramla yad etdi. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Böyük Vətən müharibəsi veteranları ilə xatirə şəkli çəkdirdilər. Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Prezident, Ali Baş Komandan İlham Əliyevin qarşısından keçdi. Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İkinci Dünya müharibəsinin iştirakçısı, partizan, Hollandiya Müqavimət Hərəkatının görkəmli nümayəndələrindən biri, Niderlandın azərbaycanlı Milli Qəhrəmanı Məmməd Məmmədovun ailə üzvləri və Oistervijk şəhərinin meri Hans Janssen ilə görüşdülər. Sonra dövlətimizin başçısı və xanımı iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun ailə üzvləri, yaxın qohumları ilə görüşdülər, Qələbə günü münasibətilə onları təbrik etdilər. Mərasimdə Baş Nazir Novruz Məmmədov, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak ediblər.





# İlham Əliyev: “Sosial sahə bizim üçün prioritet sahədir”

*Prezident İlham Əliyev DOST Agentliyinin və ilk DOST mərkəzinin inzibati binasının açılışında iştirak edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 9-da Bakının Yasamal rayonunda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin və ilk DOST mərkəzinin inzibati binasının açılış mərasimində iştirak ediblər. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı inzibati binanın rəmzi açılışını bildirən lenti kəsdi. DOST Agentliyinin və ilk DOST mərkəzinin 7 mərtəbəli inzibati binasının memarı Nəriman İmaməliyevdir. Neomodernizm üslubunda inşa edilən bu bina mühəndis sistemləri baxımından ən müasir tələblərə cavab verir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva binada yaradılan şəraitlə yaxından tanış oldular. Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev binada yaradılan şərait barədə məlumat verdi.



Bildirildi ki, mərkəzdə xidmətin asanlaşdırılması məqsədilə elektron lövhələr və məlumat köşkü yaradılıb. Nazirliyin aidiyyəti qurumlarının fəaliyyəti mərkəzdə əlaqəli şəkildə təmin edilib. Əlilliyi olan şəxslər üçün lazımi şərait yaradılıb. Xidmətlər vahid standartlar əsasında və bir-birinə inteqrasiya olunmuş şəkildə elektron müstəvidə təqdim olunur. DOST mərkəzlərində proaktiv xidmətlər də göstəriləcək, vətəndaşlara bu və ya digər sosial hüquqlar barədə məlumat veriləcək. Qeyd edək ki, ilk DOST mərkəzi gün ərzində 350 vətəndaşı qəbul edə biləcək. Mərkəz ilkin mərhələdə Bakının Yasamal və Səbail rayonlarının əhalisinə xidmət edəcək. İl ərzində 100 mindən artıq vətəndaşa “bir pəncərə” prinsipi ilə məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində 126 xidmət göstəriləcək.

Dövlətimizin başçısı və birinci xanım əlilliyi olan şəxslərin əl işlərindən ibarət sərgiyə də baxdılar. Əhalinin sosial müdafiəsi istiqamətində son illər görülən işlərlə bağlı da məlumat verildi. Sonra DOST Agentliyinin E-sosial portalı, E-pensiya və məşğulluq altsistemi barədə videoçarx nümayiş olundu.

Vurğulandı ki, hazırda dünya təcrübəsində oxşar layihələr olsa da, DOST mərkəzləri əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələri üzrə 126 xidmətin “bir pəncərə”dən təqdim edilməsinə imkan verən, əhatə dairəsi geniş olan, innovativ yenilikləri özündə birləşdirən nadir layihədir. Ona görə də DOST mərkəzlərinin ölkəmizin dövlət sosial xidmətləri sahəsində Azərbaycanın yeni brendinə çevriləcəyi gözlənilir. Agentlik DOST mərkəzləri vasitəsilə “bir pəncərə” prinsipi ilə 2,8 milyon şəxsə xidmət göstərəcək. Agentliyin 2019-2025-ci illərdə Bakıda və ölkəmizin regionlarında 31 DOST mərkəzinin istifadəyə verilməsi nəzərdə tutulub. DOST Agentliyinin mərkəzi aparatında 315 nəfər, DOST mərkəzlərində kateqoriyasından asılı olaraq 50-100 nəfər xüsusi təlim keçən sosial agentlər və sosial işçilər fəaliyyət göstərəcək. “Gənc DOST” könüllülər proqramı hazırlanıb və artıq 50 könüllü işə başlayıb. Hər mərkəzdə 30-50 könüllünün, gələcəkdə isə yaşlıların cəlbi də nəzərdə tutulur.



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva DOST Agentliyinin bir qrup işçisi və “Gənc DOST” könüllüləri ilə görüşdülər. Prezident İlham Əliyev:

“Əziz dostlar, bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. İlk DOST mərkəzi açılır, fəaliyyətə başlayır. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Keçən ilin avqust ayında mənim Sərəncamımla DOST Agentliyi yaradıldı və şadam ki, qısa müddət ərzində, heç bir il keçməmiş birinci mərkəz artıq fəaliyyətə başlayır. Bildiyiniz kimi, Bakıda, bütün bölgələrdə bütövlükdə 31 mərkəz yaradılacaq. Vətəndaşlara yüksək xidmət göstərmək üçün burada bütün şərait, bütün imkanlar var. Bina çox gözəldir, müasirdir, həm xarici görünüşü, həm də dizayn-tərtibat baxımından. Bu, bir daha onu göstərir ki, sosial sahə bizim üçün prioritet sahədir. Hər mərkəzdə təqribən 100-150 iş yeri olacaq, bu da çox önəmlidir. Hər bir mərkəzdə könüllülər qrupu fəaliyyət göstərəcək. Beləliklə, bu mərkəzlər vətəndaşlara yüksəksəviyyəli xidmət etmək üçün gözəl şərait yaradacaqdır.

Sosial sahə bizim üçün prioritet sahədir. Bu sahəyə çox böyük diqqət göstərilir və bu istiqamətdə aparılan islahatlar artıq özünü göstərir. DOST Agentliyinin yaradılması bu istiqamətdə atılmış çox önəmli islahatdır. Növbəti illərdə bu agentliyin fəaliyyətinin genişləndirilməsi əminəm ki, vətəndaşlar tərəfindən də çox yüksək qiymətləndiriləcək. Beləliklə, bu sahə ilə bağlı bizim siyasətimiz daha da geniş miqyasda və məqsədyönlü şəkildə icra ediləcəkdir. Sosial sahə hər bir ölkə üçün böyük önəm daşıyır. Azərbaycanda da bu sahəyə böyük diqqət göstərilir. Bizim siyasətimiz sosialyönümlü siyasətdir. Çalışırıq bütün əlavə gəlirlərimizi sosial sahəyə yönəldək ki, vətəndaşların rifah halı daha da yaxşılaşsın, işsizliklə bağlı problemlər daha da yüksək səviyyədə həll olunsun və ölkəmizin dinamik inkişafı təmin edilsin. Əlbəttə buna nail olmaq üçün, ilk növbədə, iqtisadi inkişaf olmalıdır və biz bu məsələ ilə bağlı ciddi məşğuluq. Qeyri-neft sektorunun, sahibkarlığın inkişafı bir-biri ilə bağlı olan məsələlərdir. Hesab edirəm ki, Azərbaycanda bu istiqamətdə işlər uğurla gedir. İqtisadiyyatımız çoxşaxəli iqtisadiyyata çevrilir. Bildiyiniz kimi, özəl sektor ümumi daxili məhsulumuzda təqribən 80 faiz təşkil edir. Beləliklə, iqtisadi artım, iqtisadi sahədə aparılan islahatlar, büdcə daxilolmalarının artımı, əlbəttə ki, sosial sahəyə böyük diqqət göstərmək üçün imkan yaradır. Deyə bilərəm ki, bu ilin dörd ayında vergi və gömrük orqanları təqribən 400 milyon manata yaxın əlavə vəsait toplayıblar - 270 milyon manat vergi orqanları, 100 milyon manatdan bir qədər çox gömrük orqanları. Yenə də şəffaflıq, yenə də islahatlar hesabına. Bu əlavə maliyyə resursu imkan verir ki, biz pensiyaları, maaşları, sosial müavinətləri artıraq və bunu edirik. Bildiyiniz kimi, bu yaxınlarda çox ciddi sosial paket hazırlanıb təsdiqləndi və 3 milyona yaxın insan bu imkanlardan bəhrələnib. Bundan sonra da bu istiqamətdə işlər aparılacaq, minimum əməkhaqqının, minimum pensiyanın artırılması gündəlikdə duran məsələlərdir. Məşğulluğun inkişafı - yəni, qeyri-qanuni məşğulluqla mübarizə nəticə verir və beləliklə, ölkəmizin iqtisadi və sosial siyasəti bir-biri ilə uzlaşır. Bu, belə də olmalıdır. Ancaq biz bunu tam şəkildə icra etsək, ölkəmizin dayanıqlı uğurlu inkişafı təmin olunacaqdır.

Sosial sahədə bir önəmli təşəbbüs də Özünüməşğulluq Proqramıdır. Mən çox şadam ki, vətəndaşlar bu proqrama çox böyük maraq göstərirlər. Biz artıq bir neçə ildir ki, bu işlərlə məşğuluq. Son dövrdə bu sahədə daha fəal iş aparılır və şadam ki, müraciətlərin sayı artır. Mənim təşəbbüsümlə biz Dünya Bankı ilə bu məsələni müzakirə etdik. Biz onları da bu işlərə cəlb etdik. Dünya Bankı da öz maliyyə resurslarından istifadə edərək bu sahəyə vəsait ayıracaq və beləliklə, bu il təqribən 10 minə yaxın vətəndaş Özünüməşğulluq Proqramı ilə əhatə olunacaq. Gələcəkdə bu işin miqyası artmalıdır. Bu, həm məşğulluğun artırılmasına xidmət edəcək, eyni zamanda, ölkə iqtisadiyyatına böyük töhfə olacaq. Özünüməşğulluq Proqramının qeyri-neft sektorunun, kənd təsərrüfatının, xidmət sektorunun inkişafı üçün çox böyük əhəmiyyəti var.

Bizim siyasətimiz deməkolar ki, DOST mərkəzlərində öz əksini tapır - islahat, innovasiya, korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə, yeni texnologiyalar, gənclərin bu işlərə cəlb olunması, könüllülərin fəaliyyəti. Yəni, bu mərkəzlər müasir Azərbaycanın simasını əks etdirir və ölkəmiz məhz bu yolla inkişaf etməlidir. Müasirlik, yenilik, islahatlar, gənclərin bu işlərə böyük dərəcədə qoşulması ölkəmizin inkişafına xidmət göstərəcək.”

Sonda xatirə şəkli çəkdirildi.

# "Bütün dövrlərdə Heydər Əliyev öz xalqına ləyaqətlə xidmət edib"

*Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 15 illiyinə həsr olunmuş təntənəli mərasim keçirilib*









Mayın 10-da Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 15 illiyinə həsr olunmuş təntənəli mərasim keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri mərasimdə iştirak ediblər. Dövlətimizin başçısı mərasimdə nitq söyləyib. Prezident İlham Əliyev öz nitqində qeyd edib ki, bu gün Azərbaycan xalqı bir daha Ulu Öndərin əziz xatirəsinə hörmət və ehtiramını bildirir:

"Azərbaycan xalqı Heydər Əliyevi sevirdi, ona inanırdı, ona həmişə dəstək olurdu. O isə öz həyatını Azərbaycan xalqına həsr etmişdir. Bütün dövrlərdə Heydər Əliyev öz xalqına ləyaqətlə xidmət etmişdir. Həm sovet dövründə, həm müstəqillik illərində Azərbaycanın inkişafı üçün çox böyük fədakarlıq göstərmişdir. Təkcə onu demək kifayətdir ki, sovet dövründə - 1970-ci illərdə, 1980-ci illərin əvvəllərində Azərbaycan Heydər Əliyevin rəhbərliyi ilə ən geridə qalmış respublikalardan birindən ən qabaqcıl respublikalardan birinə çevrilmişdir. Məhz o illərdə çox möhkəm sənaye potensialı yaradılmışdır, infrastruktur layihələri icra edilmişdir. O layihələr ki, bu gün də müstəqil Azərbaycana xidmət göstərir. Heydər Əliyevin yüksək şəxsi keyfiyyətlərini və Azərbaycanda əldə edilmiş nəticələri nəzərə alaraq, 1982-ci ildə o, Moskvaya dəvət olundu, yüksək vəzifəyə - Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildi. Bu vəzifədə də uğurla çalışırdı, o cümlədən Azərbaycanın inkişafı ilə bağlı verdiyi tapşırıqlar, qəbul etdiyi qərarlar o vaxt da ölkəmizin inkişafına xidmət göstərirdi. Yəni, o, Azərbaycanla daim maraqlanırdı, Azərbaycanda gedən işlərə böyük maraq və dəstək göstərirdi. 1987-ci ildə vəzifədən gedəndən sonra xalqımız, respublikamız üçün problemlər başladı. İki həftə də keçməmiş erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana verilməsi haqqında iddia qaldırdılar. Güclü Heydər Əliyev amili imkan vermirdi ki, bu məsələ bundan əvvəlki dövrdə qaldırılsın. Halbuki, belə cəhdlər, belə meyillər var idi. Ancaq Heydər Əliyev amili buna imkan vermirdi.

Deyə bilərəm ki, əgər Heydər Əliyev o vaxt Azərbaycanın rəhbərliyində olsaydı, heç şübhəsiz ki, Dağlıq Qarabağ problemi heç vaxt yaranmazdı. O vaxtdan xalqımız üçün böyük problemlər başladı. Dağlıq Qarabağda xüsusi idarəetmə komitəsi yaradıldı və separatçı meyillər geniş vüsət aldı. Pensiyada olan Heydər Əliyev Moskvada yaşayırdı və hər zaman Azərbaycan haqqında düşünürdü. Gördü ki, respublikada vəziyyət kifayət qədər mürəkkəbdir, xoşagəlməz hallar baş verir, respublika tənəzzülə uğrayır. Hadisələrin gələcək inkişafı göstərdi ki, onun təhlili demək olar tam dəqiq və düzgün idi.

Qanlı Yanvar faciəsindən dərhal sonra Heydər Əliyev öz səsini ucaltdı, öz xalqı ilə birlikdə olduğunu bildirdi və yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində mətbuat konfransında çıxış edərək sovet rəhbərliyinin bu qəddar aktını qətiyyətlə pislədi. Mən bunun əyani şahidiyəm. Yadımdadır ki, biz daimi nümayəndəliyə gələndə orada çox böyük kütlə var idi, insanlar toplaşmışdılar, çox həyəcanlı idilər. Heydər Əliyevi görəndə onlar canlı dəhliz yaratdılar, kənara çəkildilər və Heydər Əliyev binaya daxil oldu. O vaxt Heydər Əliyev pensiyaçı idi, ona qarşı müxtəlif dövrlərdə qarayaxma kampaniyaları aparılırdı. Ancaq xalqın qəlbində o, lider, görkəmli şəxsiyyət, Azərbaycan xalqının böyük oğlu kimi yaşayırdı. Həmin gün ona göstərilən hörmət əlbəttə ki, həmişə bizim yadımızda qalacaqdır.

Ardı Səh. 9

# "Bütün dövrlərdə Heydər Əliyev öz xalqına ləyaqətlə xidmət edib"

*Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 15 illiyinə həsr olunmuş təntənəli mərasim keçirilib*

Əvvəli-Səh-8

O vaxt Sovet İttifaqının dağılmasına hələ iki il var idi. Bəlkə də heç kimin ağlına gələ bilməzdi ki, Sovet İttifaqı dağıla bilər. Ona görə məhz o anda, xalqımız üçün ən ağır anda Heydər Əliyevin bu addımı, bu bəyanatı əlbəttə ki, böyük cəsarət tələb edirdi, bir daha onu göstərirdi ki, o, hər zaman Azərbaycan xalqı ilə bir yerdədir. Ondan sonra bu qanlı cinayətə etiraz olaraq uzun illər ərzində üzvü olduğu kommunist partiyasının sıralarını tərk etdi. Bu da böyük cəsarət tələb edirdi. Təbii ki, ondan sonra ona və onun ailə üzvlərinə qarşı təzyiqlər, təqiblər başlamışdır. Bu təzyiqlərin müxtəlif formaları var idi. Bir sözlə, ona təzyiq etmək və cəzalandırmaq üçün praktiki addımlar atılırdı. Hətta bizdə məlumat var idi ki, onun həbsi ilə bağlı məsələ müzakirə edilirdi.

Bakıya gəldi, ovaxtkı rəhbərlik ona Bakıda yaşamağa imkan vermədi, doğulduğu Naxçıvan Muxtar Respublikasına üz tutdu. O da tarixin hökmü idi. Çünki o vaxt Naxçıvan çox ağır vəziyyətdə idi. Erməni separatçılarının və onların havadarlarının Azərbaycana qarşı məkrli planlarında Naxçıvanın işğalı da var idi. Məhz Heydər Əliyev amili, onun iradəsi, xalqın ona olan inamı Naxçıvanı bu böyük bəladan qurtara bildi. O vaxt onun rəhbərliyi ilə Naxçıvanda səfərbərlik işləri aparılmışdır. Sərhəddə şiddətli döyüşlər gedirdi və Naxçıvan öz torpağını qoruya bildi.

Naxçıvanda digər yaddaqalan hadisə Azərbaycanın tarixində qızıl hərflərlə yazılıb. Məhz Heydər Əliyevin təşəbbüsü və sədrliyi ilə Naxçıvan Ali Məclisinin - ovaxtkı Ali Sovetin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı elan edildi. Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırıldı ki, oxşar qərar ölkə miqyasında qəbul edilsin. Yəni, bu, tarixdir. Bu tarix bir daha göstərir ki, Heydər Əliyev hər zaman Azərbaycan xalqının yanında idi. Xalq ona böyük dəstək verirdi, o da gücü xalqın inamından, məhəbbətindən alırdı.

Azərbaycanda ovaxtkı vəziyyət bizim yadımızdadır. O vaxt - 1992-ci ildə hakimiyyəti qanunsuz yollarla zəbt etmiş AXC-Müsavat cütlüyü ölkəmizi, gənc, müstəqil dövləti uçuruma aparırdı. Xaos, anarxiya, özbaşınalıq, total böhran hökm sürürdü, talançılıq, rüşvətxorluq baş alıb gedirdi, ölkə idarəolunmaz vəziyyətə düşmüşdü. Siyasi, iqtisadi, hərbi böhran gənc dövlətin dayaqlarını sarsıdırdı. Azərbaycan xalqı bu xəyanətkar hakimiyyətə bir il dözə bildi. Bir ildən sonra onlar tarixin arxivinə göndərildi. O vaxt torpaqlarımız işğal altına düşdü. Şuşa, Laçın, Kəlbəcər rayonlarının işğal altına düşməsi Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi əlaqə yaratdı.

Azərbaycan öz inkişaf yolunu Heydər Əliyevin simasında gördü və müraciət edərək onu dəvət etdi. Heydər Əliyevin o vaxt 70 yaşı var idi, ömrünün böyük hissəsi geridə qalmışdı. Ancaq xalq sevgisi, xalqa olan məhəbbət və böyük məsuliyyət hissi onu bu dəvəti qəbul etməyə sövq etdi. Beləliklə, müstəqil Azərbaycanın müstəqil həyatı başladı. Çünki tam qətiyyətlə deyə bilərəm ki, 1993-cü ilə qədər bizim dövlət müstəqilliyimiz şərti xarakter daşıyırdı. Atributlar var idi, ancaq ölkə müstəqil siyasət apara bilmirdi. 1993-cü il dönüş nöqtəsi oldu. Məhz Heydər Əliyevə xalq tərəfindən göstərilən inam, etimad imkan verdi ki, ölkə bu ağır vəziyyətdə, vətəndaş müharibəsinin fəsadlarından ləyaqətlə çıxa bilsin və belə də oldu. Sabitlik yaradıldı, inkişafa yol açıldı, bütün sahələrdə, ilk növbədə, siyasi sahədə islahatlar icra edilməyə başlandı. Çünki o vaxt Azərbaycanda siyasi sistem hələ formalaşmamışdı. Siyasi sistemin formalaşmasında 1992-ci ildə Naxçıvanda yaradılmış Yeni Azərbaycan Partiyasının rolunu qeyd etməliyəm. Onu da bildirməliyəm ki, özlərini demokrat adlandıran şəxslər o vaxt imkan vermədilər ki, Yeni Azərbaycan Partiyasının təsis qurultayı Bakıda keçirilsin. Bir qrup vətənpərvər ziyalı Naxçıvana gedərək Heydər Əliyevin iştirakı ilə Yeni Azərbaycan Partiyasının təsis qurultayını keçirdilər.

Heydər Əliyevin təşəbbüsü ilə senzura ləğv edildi. O vaxt Azərbaycanda mətbuat azadlığı yox idi. Senzuranın ləğvi də Ulu Öndərin gələcəyə yönəlmiş baxışlarını tam əks etdirirdi.

Ordu quruculuğu prosesi başlamışdır. Çünki o vaxta qədər nizami ordu yox idi. İqtisadi sahədə çox ciddi islahatlar aparılmışdır, o cümlədən kənd təsərrüfatı sahəsində. O islahatlar ki, bu gün bizim apardığımız islahatlar üçün gözəl zəmin yaradır. Sənaye potensialının inkişafı ilə bağlı önəmli addımlar atılmışdır. Sərmayə qoyuluşu Azərbaycanda artıq bir amil kimi mövcud oldu. "Əsrin kontraktı"nın imzalanması əlbəttə ki, tarixi hadisədir. 1994-cü ilin sentyabrında bu kontraktın imzalanması bu gün müstəqil Azərbaycanın inkişafını böyük dərəcədə təmin etmişdir. Bu kontraktdan əldə edilən gəlirlər ölkəmizin bütün sahələrində özünü büruzə verir - insanların rifah halının yaxşılaşması, ordu potensialının gücləndirilməsi, məcburi köçkünlərin problemlərinin həlli, infrastruktur layihələrinin icrası. Əgər bizim maliyyə imkanlarımız olmasaydı, bu işləri nəyin hesabına görə bilərdik? Bu maliyyə imkanlarını bizə "Əsrin kontraktı" yaratdı. Mən o dövrü yaxşı xatırlayıram. O vaxt Dövlət Neft Şirkətinin vitse-prezidenti kimi digər yoldaşlarla bu məsələ ilə ciddi məşğul idim. Bu kontrakt Azərbaycan üçün ən məqbul şərtlərlə imzalanmışdır və bu, bugünkü reallıqda özünü göstərir. Bu yaxınlarda kontraktın müddəti 2050-ci ilə qədər uzadıldı. Azərbaycan bu kontraktın faydasını görəcəkdir.

2003-cü ildə prezident seçkiləri ərəfəsində mən bəyan etmişdim ki, əgər xalq etimad göstərərsə, Heydər Əliyev siyasətini davam etdirəcəyəm və xalq Heydər Əliyev siyasətinə səs verdi. O vaxtdan bu günə qədər Azərbaycan böyük və uğurlu yol keçdi, müstəqillik daha da möhkəmləndi. Azərbaycanda sabitlik təmin olunub, sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Bizim beynəlxalq mövqelərimiz böyük dərəcədə möhkəmləndi. Bu gün Azərbaycan dünya miqyasında çox müsbət nüfuza malik olan bir ölkədir. Biz Ulu Öndərin doğum gününü yaxşı nəticələrlə, böyük planlarla qarşılayırıq. Əminəm ki, bütün planlar reallaşacaq. Necə ki, bu günə qədər reallaşıb, bundan sonra da reallaşacaq. Çünki buna bizim iradəmiz də çatır, gücümüz də var, xalq da bizim siyasətimizi dəstəkləyir. Biz bundan sonra yalnız və yalnız uğurlar və qələbələr yolu ilə gedəcəyik."

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadəyə Heydər Əliyev Mükafatının verilməsi ilə bağlı Sərəncamı oxundu.

Prezident İlham Əliyev Heydər Əliyev Mükafatının akademik Xoşbəxt Yusifzadəyə təqdim etdi. Daha sonra Heydər Əliyev Fondu tərəfindən təsis edilmiş "Qızıl çinar" beynəlxalq mükafatının 2019-cu il üzrə qalibləri elan olundu.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin dirijoru, Almaniya Münxen Yeni Filarmoniyasının Simfonik Orkestrinin baş dirijoru, Əməkdar artist Fuad İbrahimova və Daun Sindromlu Uşaqların Reabilitasiya Mərkəzinin direktor müavini Zərifə Məmmədovaya "Qızıl çinar" beynəlxalq mükafatlarını təqdim etdi.

# Leyla Əliyeva Bakının Buzovna qəsəbəsindəki 1 saylı psixonevroloji sosial xidmət müəssisəsini ziyarət edib



Mayın 9-da Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva paytaxtın Buzovna qəsəbəsindəki 1 saylı psixonevroloji sosial xidmət müəssisəsinin sakinlərini ziyarət edib. AZƏRTAC xəbər verir ki, 1974-cü ildə yaradılan 1 saylı psixonevroloji sosial xidmət müəssisəsi Heydər Əliyev Fondunun təşəbbüsü ilə əsaslı təmir olunaraq bu ilin fevral ayında istifadəyə verilib.



Yenidənqurma işlərindən sonra burada yaşayanların sağlamlığı və rahatlığı üçün müasir standartlara uyğun şərait yaradılıb. Heydər Əliyev Fondu növbəti dəfə burada xüsusi qayğıya ehtiyacı olan insanlar üçün şənlik təşkil etdi. Fondun vitse-prezidenti Leyla Əliyeva tədbirə gələrək müəssisənin sakinləri ilə görüşdü, onlarla söhbət etdi, burada yaradılan şərait, bu kateqoriyadan olan insanların müalicəsi ilə maraqlandı.

Xüsusi qayğıya ehtiyacı olanlar 1 saylı psixonevroloji sosial xidmət müəssisəsində gün ərzində gördükləri işlərdən danışdılar, necə əyləndiklərini söylədilər, təəssüratlarını bölüşdülər. Müəssisəyə sosial xidmətə ehtiyacı olan psixotik simptomatika mərhələsinə çatmayan şəxslər qəbul edilir. Ölkəmizdə sağlamlıq imkanları məhdud olan, xüsusi qayğıya ehtiyac duyan şəxslərin tibbi və sosial reabilitasiyasının gücləndirilməsi istiqamətində mühüm addımlar atılır. Dövlət bu qəbildən olan şəxslərin çoxsaylı sosial proqramlara, o cümlədən reabilitasiya, pulsuz istirahət və texniki-bərpa təminat proqramlarına cəlb olunmasını həyata keçirir. Dövlət səviyyəsində bu istiqamətdə reallaşan tədbirlərə Heydər Əliyev Fondunun da xüsusi töhfəsi var. Bu cür layihələrin icrası həm də onu göstərir ki, nəcib təşəbbüsləri və layihələri ilə seçilən Heydər Əliyev Fondunun xüsusi qayğıya ehtiyacı olanların sosial məsələlərinin həlli, onların müalicə və reabilitasiya işinin yüksək səviyyədə təşkil edilməsi istiqamətində həyata keçirdiyi tədbirlər davamlı xarakter alıb. 1 saylı psixonevroloji sosial xidmət müəssisəsinə Heydər Əliyev Fondunun hədiyyələri təqdim edildi.



# Zəmanəni qabaqlayan fenomen - Heydər Əliyev dühası



NEWTIMES ANALYTICAL INFORMATION

THE THINKING OF FUTURE
BİZ DÜNYA SİYASƏTİNİN BÜTÜN SİRLƏRİNİ AÇIRIQ

SİYASƏT GEOSİYASƏT İQTİSADİYYAT BEYNƏLXALQ MÜNASİBƏTLƏR QLOBAL PROSESLƏR VƏ TRENDLƏR MÜSAHİBƏLƏR ŞƏRHLƏR KİBER MƏKAN

BEYNƏLXALQ TƏŞKİLATLAR AVROPA ASİYA AMERİKA AFRİKA AVSTRALİYA VƏ OKEANİYA

Zəmanəni qabaqlayan fenomen – Heydər Əliyev dühası

Siz buradasınız: Əsas səhifə »» SİYASƏT »»

Novruz Məmmədov
Müəllifin digər yazıları

10.05.2019
10:00

Bakı, 10 may 2019 – Newtimes.az

Novruz Məmmədov,

Azərbaycan Respublikasının Baş Naziri

Bu gün dünyada elə bir xalq tapmaq olmaz ki, tarixinin taleyüklü və mürəkkəb mərhələsində onun taleyində müstəsna rol oynamış, dövlətçilik ənənələri formalaşdırmış milli lideri olmasın. Belə liderlərin mənalı və zəngin həyat səhifələrini vərəqləyərkən, onların mənsub olduğu xalqların da dövlətçilik ənənələri, tarixi, inkişaf səviyyəsi barədə aydın təsəvvür yaranır. Bu dahi şəxsiyyətlər yüksək mənəvi aləmləri ilə, ali bəşəri və milli ideallara, ümummilli mənafelərə ürəkdən bağlılıqları ilə milyonların qəlbində özləri üçün möhtəşəm abidə ucaldırlar.

Hər bir xalqın tarixdəki yeri və rolu mürəkkəb siyasi şəraitdə məsuliyyəti üzərinə götürərək onun taleyində misilsiz rol oynamış, mütərəqqi ideyaları, qeyri-adi idarəçilik keyfiyyətləri ilə müdrikcəsinə və uzaqgörənliklə sabit dövlətçilik ənənələri yaratmış dahi şəxsiyyətin fövqəladə missiyası ilə şərtlənir. Tanrının bəxş etdiyi belə seçilmiş şəxsiyyətlər xalqlarının əsrlər boyu

Qoşulu olduğu bölmələr: qlobal proseslər və trendlər, siyasət, iqtisadiyyat, sivilizasiyalararası dialoq, beynəlxalq təşkilatlar, şərhlər, ekspertlər, münaqişələr, şəxsiyyətlər

Müəllifin digər yazıları: Zəmanəni qabaqlayan fenomen – Heydər Əliyev dühası; Seçkilərin daha erkən tarixə təyin edilməsi dövlətin qarşısında duran mühüm məsələlərin həlli baxımından vacibdir; Heydər Əliyev: dahi xilaskar və

Aktual / Səfərlər: Ərdoğan: "Türkiyə uzaqlaşdırıldığı təqdirdə "F-35" layihəsi tamamilə iflasa uğrayacaq" Davamı...

Diplomatik guşə: Sudan-Azərbaycan iqtisadi münasibətlərinin inkişafı Azərbaycan-Afrika münasibətlərinin inkişafı üçün də əsas yarada bilər Davamı...

Azərbaycanın xarici ölkələrdəki diplomatik nümayəndəlikləri twitterdə

AZEmbNurSultan @azembassykz
Гейдара Алиева всегда связывали искренне добрые отношения с Казахстаном.#Азербайджан #Казахстане-history.kz/ru/publication....

Ambasciata dell'Azerbaigian

***"Newtimes.az" portalında Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədovun "Zəmanəni qabaqlayan fenomen - Heydər Əliyev dühası" sərlövhəli məqaləsi dərc olunub. AZƏRTAC məqaləni təqdim edir.***

Bu gün dünyada elə bir xalq tapmaq olmaz ki, tarixinin taleyüklü və mürəkkəb mərhələsində onun taleyində müstəsna rol oynamış, dövlətçilik ənənələri formalaşdırmış milli lideri olmasın. Belə liderlərin mənalı və zəngin həyat səhifələrini vərəqləyərkən, onların mənsub olduğu xalqların da dövlətçilik ənənələri, tarixi, inkişaf səviyyəsi barədə aydın təsəvvür yaranır. Bu dahi şəxsiyyətlər yüksək mənəvi aləmləri ilə, ali bəşəri və milli ideallara, ümummilli mənafelərə ürəkdən bağlılıqları ilə milyonların qəlbində özləri üçün möhtəşəm abidə ucaldırlar.

Hər bir xalqın tarixdəki yeri və rolu mürəkkəb siyasi şəraitdə məsuliyyəti üzərinə götürərək onun taleyində misilsiz rol oynamış, mütərəqqi ideyaları, qeyri-adi idarəçilik keyfiyyətləri ilə müdrikcəsinə və uzaqgörənliklə sabit dövlətçilik ənənələri yaratmış dahi şəxsiyyətin fövqəladə missiyası ilə şərtlənir. Tanrının bəxş etdiyi belə seçilmiş şəxsiyyətlər xalqlarının əsrlər boyu cilalanmış dövlətçilik təfəkkürü, siyasi dünyagörüşü, milli dəyərləri əsasında optimal dövlət modeli və siyasi varislik ənənələri yaradırlar. Ruslar üçün bu şəxsiyyət I Pyotr, amerikalılar üçün Corc Vaşinqton, ingilislər üçün Uinston Çörçil, fransızlar üçün Şarl de Qoll, almanlar üçün Otto fon Bismark, çinlilər üçün Mao Tszedun, türklər üçün Mustafa Kamal Atatürkdürsə, azərbaycanlılar üçün Heydər Əliyevdir!

XX əsr tariximizin parlaq siması, böyük şəxsiyyəti olan ümummilli lider Heydər Əliyevin siyasi portreti də Azərbaycan xalqının dövlətçilik təfəkkürünün, tarixin sınağından şərəflə çıxmış unikal idarəçilik məktəbinin, müasir ictimai-siyasi, fəlsəfi fikrin ən davamlı keyfiyyətlərinin canlı təcəssümüdür. Tarixşünaslıq elmi Heydər Əliyev şəxsiyyətini öyrəndikcə, əslində, müstəqil Azərbaycan dövlətinin tarixi keçmişini, bu gününü, ölkəmizdə həyata keçirilən dövlət quruculuğu prosesini öyrənir.

Tarixi gerçəkliklərin müqayisəsi böyük şəxsiyyətlərin fəaliyyətinin qiymətləndirilməsində ən obyektiv istinad yeridir. Bu mənada, ulu öndər Heydər Əliyevin rəhbərlik etdiyi Azərbaycan istisnasız olaraq daim irəliləyən, iqtisadi, sosial, humanitar və mədəni sahələrdə intibaha can atan, hər addımda insan və şəxsiyyət amilini uca tutan ölkə kimi görünür.

Ümummilli lider Heydər Əliyevin müdrik və uzaqgörən idarəçiliyi sayəsində müstəqil Azərbaycan xarici siyasətində etibarlı tərəfdaşlıq və sabitlik mərkəzi kimi çıxış edən, iqtisadi və sosial rifah yolunda qətiyyətli addımlarla irəliləyən, "dövlət-vətəndaş" birliyinin təşəkkül tapdığı bir ölkəyə çevrilib.

Ötən yüzillikdə cərəyan edən hadisələrin təhlili göstərir ki, respublikanın müstəqilliyə gedən yolu 1969-cu ildən başlayaraq ulu öndər Heydər Əliyevin ikinci dəfə Azərbaycana rəhbərlik etdiyi dövrdə həyata keçirilən məqsədyönlü siyasətlə tamamlanıb. Zaman və ictimai-iqtisadi formasiya baxımından kifayət qədər fərqli olan hər iki tarixi dövrün əsas bənzər cəhətləri isə Ulu Öndərin Azərbaycana böyük nailiyyətlər qazandıran fədakar xidməti, eləcə də ölkənin inkişafında yeni impuls və tərəqqi meyillərinin geniş vüsət alması olub. Beləliklə, ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi və tarixi şərait baxımından tamam fərqli olan dövrlər sadəcə eyni missiyanın, biri-birini tamamlayan iki mərhələsi kimi qiymətləndirilə bilər.

Dünya siyasət arenasında unudulmaz şəxsiyyətlərdən olan Heydər Əliyevin rəhbərliyi altında uzun müddət işləməyim mənim üçün böyük şərəfdir. Ümumiyyətlə, dünyanın böyük şəxsiyyətləri həmişə adi insanların yaşadığı həyat tərzinin fövqündə dururlar. Ulu Öndər insanların həyat yoluna işıq saçan təfəkkür və mənəviyyat sahibi idi. Hərəkətləri sadə olsa da, bunun arxasında həmişə böyük məna durardı. Ulu Öndər böyük ideyaya malik idi. Atdığı addımlar, yeritdiyi siyasət, istifadə etdiyi diplomatik üsullar onun uzaqgörənliyini, strateji təfəkkürə sahib olduğunu təsdiq edirdi. Beynəlxalq miqyasda dünya liderləri də Heydər Əliyevi zəmanəni qabaqlayan dünya miqyaslı dövlət xadimi kimi qəbul edirlər.

## Gələcək müstəqilliyə etibarlı zəmin

İdarəçilik fəlsəfəsi fərqli və özünəməxsus cəhətlərlə zəngin olan Ümummilli Liderin Sovet Azərbaycanına rəhbərlik mərhələsi ölkəni sürətli inkişaf yoluna çıxarmaqla yanaşı, milli müstəqilliyə etibarlı zəmin formalaşdıran amillərlə də zəngin olub. Milli özünəqayıdış və özünüdərkin məhz bu dövrdə başlanğıcını qoyan, azərbaycançılıq məfkurəsinin keçən əsrdə yazılan ən parlaq səhifələrinin müəllifi olan ulu öndər Heydər Əliyevin Azərbaycana gətirdiyi ideyalar ölkə həyatını tamamilə müasirləşdirib.

Tarixin axarını dəyişən ideya və prinsiplərin daşıyıcısı olan Heydər Əliyevin nadir idarəçilik keyfiyyətləri, xarizmatik liderlik cəhətləri, böyük vətənpərvərliyi ötən əsrin 70-ci illərindən etibarən milli ideyanın yüksəlişinin təmin edilməsində misilsiz rol oynayıb. Ümummilli lider Heydər Əliyevin idarəçiliyinin ən mühüm xüsusiyyəti Azərbaycanın bütün sahələr üzrə inkişafının yeni mərhələsinə qədəm qoyması, sözün əsl mənasında, öz intibah dövrünü yaşaması olub. İqtisadi asılılığın aradan qaldırılmasının siyasi müstəqilliyin təməlində duran əsas amillərdən biri olduğunu aydın görən Ulu Öndər ölkənin istehsal potensialının mühüm hissəsinin ittifaq şəbəkəsindən ayrılaraq asılı şəkildə müstəqilləşdirilməsi, sənaye potensialının gücləndirilməsi, təhsil sahəsinin yeni mərhələsinin əsasının qoyulması, xalqın gələcəyini nəzərdə tutan milli kadr potensialının, o cümlədən nadir ixtisaslar üzrə mütəxəssis kontingentinin yaradılması kimi möhtəşəm nailiyyətlərə imza atıb.

Ulu Öndər həmin dövrdə azərbaycanlıların keçmiş SSRİ-nin nüfuzlu ali təhsil ocaqlarında təhsili üçün səylə çalışır, respublikamız üçün ayrılmış müsabiqədənkənar yerlərin sayının artırılmasını Moskvadan israrla tələb edir, əksər hallarda buna nail olurdu. 1970-ci ildə respublikadan kənara oxumağa göndərilən belə tələbələrin sayı əgər 60 nəfər idisə, 1975-ci ildə onların sayı 600 nəfərə, 1978-ci ildə 800-900 nəfərə çatmışdı. Beləliklə, SSRİ-nin müxtəlif ali təhsil müəssisələrinə göndərilənlərin sayı o zaman təxminən Azərbaycan Dövlət Universitetinə bir il ərzində qəbul olunanların sayına bərabər idi. Ümummilli lider Heydər Əliyev çox sonralar - 1997-ci ildə keçmiş SSRİ-nin müxtəlif universitetlərində ali təhsil almış məzunlarla görüşündə bununla bağlı xatırlamışdı: "Azərbaycanda kadr hazırlığı məsələsi ilə şəxsən, bilavasitə ciddi məşğul olarkən və o cümlədən sizləri respublikamızdan kənarda ali məktəblərə göndərərkən mütləq və mütləq Azərbaycanın gələcəyini, müstəqilliyini düşünürdüm. O vaxt mən inanırdım: vaxt gələcək ki, bu kadrlar müstəqil Azərbaycana lazım olacaq. Vaxt gələcək ki, nəhayət, Azərbaycan müstəqil olacaq və bu kadrlar Azərbaycanın müstəqilliyini təmin edəcəklər".

Həmin illərdə Heydər Əliyevin qətiyyəti, iradəsi və təşəbbüskarlığı ilə keçmiş SSRİ-nin bir sıra strateji əhəmiyyətli müəssisələri məhz Azərbaycanda inşa olunub, bununla da respublikamızın gələcək müstəqilliyinin iqtisadi əsası formalaşdırılıb. Ulu öndər Heydər Əliyev bu məsələdə daim qətiyyətli mövqe tutub, keçmiş ittifaqın rəhbərliyi qarşısında israrlı tələblərlə çıxış edib, prinsipiallıq göstərib.

Neft sənayesinin iqtisadi inkişafdakı rolunu müdrikliklə nəzərə alan ulu öndər Heydər Əliyev 70-ci illərdə bu sahənin dinamik inkişafına, neft-kimya sənayesinin tamamilə modernləşdirilməsinə nail olub. Həmin dövrdə neft sənayesinin inkişafında tamamilə yeni mərhələ başlanıb, bu zəngin milli sərvətin Azərbaycanın rifahına xidmət edən vasitəyə çevrilməsi prosesinin əsası qoyulub. Heydər Əliyevin müəllifliyi ilə tərtib olunan "Azərbaycanda neftayırma sənayesinin yenidən qurulması" planı əsasında bu tipli müəssisələrin, iri komplekslərin tikilməsi və yeni fəaliyyət prinsiplərinə keçməsi prosesi sürətlə başa çatdırılıb və gələcək yeni neft strategiyasının yol xəritəsi müəyyən edilib.

## Milli inkişaf modelinin müəllifi

Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı olan Ulu Öndər öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olub. Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin siyasi, ideoloji, iqtisadi əsaslarını yaradıb, xalqı müstəqil, güclü dövlətə sahib olmaq arzusuna qovuşdurub və çağdaş tariximizdə əbədiyaşarlıq qazanaraq sağlığında canlı əfsanəyə çevrilmiş dahi şəxsiyyətdir.

Müasir müstəqil Azərbaycan Respublikasının qurucusu Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyası bütün dünya azərbaycanlılarını əhatə edərək, onların milli istinad mənbəyinə çevrilib. Hələ keçən əsrin 70-ci illərindən başlayaraq Ulu Öndərin uzaqgörənliklə milli zabit kadrlarının yetişdirilməsi məqsədini hədəfləyən indiki Cəmşid Naxçıvanski adına Hərbi Liseyi yaratması, Azərbaycan dilinin o vaxtlar Azərbaycan SSR-in Konstitusiyasında dövlət dili kimi təsbit edilməsinə nail olması kimi bir çox müasirlərinin xəyalına belə gəlməyən tarixi addımlar Azərbaycanın gələcək nəsillərinin vətənpərvər insan kimi yetişməsi üçün əvəzolunmaz töhfələrdir.

Milli-mənəvi dəyərlərimizə qayıdışın və milli oyanışın xalqımız üçün gərəkliliyini nəzərə alan Heydər Əliyev hər zaman bu məsələni diqqət mərkəzində saxlayırdı. O, dəyərlərimizi təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın - dövlət quruculuğu prosesinin mühüm atributu hesab edirdi. Əminliklə deyə bilərik ki, Ulu Öndərin bu münasibəti hər birimiz üçün böyük məktəbdir.

Ulu öndər Heydər Əliyevin lider kimi böyüklüyü onun daim strateji hədəflərə hesablanmış və milli məqsədləri önə çəkən siyasət yürütməsi olub. Məhz ötən əsrin 70-80-ci illərində formalaşdırılmış iqtisadi potensial 90-cı illərin sonlarına doğru dünyada cərəyan edən mürəkkəb proseslərin nəticəsi kimi istiqlaliyyət qazanmış Azərbaycanın sonrakı mərhələdə müstəqil yaşamasını təmin edib.

*Ardı Səh. 11*

# Zəmanəni qabaqlayan fenomen - Heydər Əliyev dühası

Əvvəli-Səh-10

Müdrik xalqımızın XX əsrdə dünya siyasi arenasına bəxş etdiyi nadir şəxsiyyət kimi ümummilli liderlik zirvəsinə ucalmış Heydər Əliyev bu gün həm də müstəqil respublikamızın milli inkişaf modelinin banisi kimi ehtiramla xatırlanır. Ümummilli Lider mərkəzi planlaşdırma və bölgü prinsiplərinin hakim olduğu bir ictimai-iqtisadi formasiyadan azad bazar iqtisadiyyatına optimal keçid modelini irəli sürərək, onun həyata keçirilməsinə çalışıb.

Dövlət mülkiyyətinin xalqın mənafeyinə uyğun formada özəlləşdirilməsi sərbəst bazar rəqabəti prinsiplərinin, xüsusi mülkiyyətçiliyin bərqərar olmasına, habelə milli iqtisadiyyatın dünya iqtisadi sisteminə inteqrasiyasına, insanların şüurunda, həyat tərzində əsaslı dəyişikliklərin baş verməsinə səbəb olub. Ölkədə həyata keçirilmiş aqrar islahat, özəlləşdirmə prosesi hər bir vətəndaşın marağını təmin etmək, əhalinin həyat səviyyəsini yaxşılaşdırmaq, sağlam rəqabətə əsaslanan istehsal üçün şərait yaratmaq niyyətinə xidmət edib.

Ümummilli Liderin rəhbərliyi altında həyata keçirilmiş struktur islahatları Azərbaycanda iqtisadiyyatın bütün sahələrinin sürətli inkişafına, o cümlədən yerli və xarici investisiyalar, müasir texnologiyalar, idarəetmə təcrübəsi cəlb etməklə, rəqabətqabiliyyətli məhsul istehsal edən müəssisələrin yaradılmasına, infrastrukturun yeniləşməsinə, yeni iş yerlərinin açılmasına imkan verib. Ümummilli Lider respublika iqtisadiyyatının keyfiyyətcə yeni mərhələsində özəl sektoru sosial-iqtisadi inkişafın başlıca təminatçısı kimi dəyərləndirmiş, güclü sahibkarlar təbəqəsinin formalaşmasına, onların cəmiyyətdəki mövqelərinin güclənməsinə çalışmışdır.

İnvestisiyaların təşviqi üçün respublikada daha münbit şərait yaratmaq, daxili və xarici sərmayəni stimullaşdıran səmərəli metodlardan istifadə etmək, xarici kapital qoyuluşunun başlıca istiqamətini qeyri-neft sektorunun, regionların inkişafına yönəltmək, habelə maddiləşən işgüzar fəallığı gücləndirmək üçün kompleks tədbirlər həyata keçirilib.

Ümumilikdə, 1993-2003-cü illərdə ölkədə həyata keçirilən siyasət belə deməyə əsas verir ki, ulu öndər Heydər Əliyev müstəqillik amilinin əyani şəkildə bərqərar olması üçün ilk növbədə iqtisadiyyatda çoxşaxəli islahatların aparılmasını, davamlı inkişaf üçün möhkəm iqtisadi bazanın formalaşmasını vacib sayıb. Ulu Öndərin müstəqil Azərbaycana rəhbərliyi illərində milli iqtisadiyyatda köklü islahatlar aparılıb, sosialyönümlü bazar iqtisadiyyatına keçidin ümdə prinsipləri müəyyənləşdirilib, torpaq islahatı kimi çətin və ağrılı proses, habelə özəlləşdirmənin birinci mərhələsi uğurla başa çatdırılıb, milli sahibkarlığın inkişafı üçün zəruri qanunvericilik bazası yaradılıb, respublikanın dünya iqtisadiyyatına inteqrasiyası sürətlənib.

### İslahatlarda müasirləşmə və novatorluq

Fəaliyyəti ilə zaman və məkanın fövqündə dayanan tarixin yetişdirdiyi ən böyük şəxsiyyətlərdən biri kimi Ulu Öndər Azərbaycanın inkişafında qazandığı uğur və nailiyyətlərin davamlı olmasını təmin etmək üçün böyük fədakarlıq göstərib. Bunun ən bariz nümunələrindən biri də Ulu Öndərin özündən sonra ölkəmizə layiqincə rəhbərlik edərək qazanılan uğurların davamlılığı təmin edəcək, xalqın alternativsiz liderinə çevriləcək davamçı-varis yetişdirməsindədir.

Bu gün Ümummilli Liderin ideyaları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin gərgin əməyi və fəaliyyəti nəticəsində yaşayır və uğurla inkişaf edir. Əminliklə demək olar ki, dövlət başçısının apardığı həm xarici, həm də daxili siyasət Heydər Əliyev kursunun davamıdır. Bu siyasətin təməlində isə Azərbaycan dövlətinin güclənməsi, onun müstəqilliyinin qorunması, iqtisadiyyatının inkişafı və əhalisinin maddi rifah halının yaxşılaşması durur.

XX əsrin sonlarına doğru müstəqil dövlətçiliyin bərpasına nail olmuş, onu möhkəmləndirərək yeni inkişaf magistralına çıxarmış müdrik xalqımız taleyini məhz qəlbən inandığı, etimad göstərdiyi siyasi liderə etibar edib. "Əsl siyasət - konkret, real iş görməkdən ibarətdir" - deyərək fəaliyyətə başlayan Prezident İlham Əliyev hələ 2003-cü ildə verdiyi vədə sadiq qalaraq, öz fəaliyyəti ilə hər bir Azərbaycan vətəndaşının layiqli Prezidenti olduğunu sübuta yetirib. 2018-ci ilin 11 aprel seçkilərində xalqın böyük dəstəyi ilə Azərbaycana rəhbərlik kimi məsuliyyətli missiyanı növbəti mərhələdə də üzərinə götürmüş İlham Əliyev ona göstərilən etimadı fəaliyyəti ilə hər zaman doğruldur, Azərbaycanı daha qüdrətli dövlətə çevirmək üçün əzmlə, qətiyyətlə çalışır. Təkcə onu demək kifayətdir ki, respublikamız son Prezident seçkilərindən sonra daha da güclənib, zənginləşib, hərtərəfli inkişaf yolunda yeni uğurlara imza atıb, insan amili isə həyata keçirilən siyasətin ana xəttində yer almaqdadır.

Ulu öndər Heydər Əliyevin idarəçilik ənənələrini yeni dövrün tələblərinə uyğun daha da zənginləşdirən cənab İlham Əliyev xalqın problemlərinə, arzu və istəklərinə həssaslıqla yanaşır və bunu bütün məmurların qarşısında zəruri tələb kimi qoyur. Fəaliyyətində xalqına güvənən, arxalanan dövlət başçısı xalqa xidmətdən böyük şərəf duyur. "Mənim işim ondan ibarətdir ki, xalqa xidmət etməliyəm. Onu da edirəm və bundan sonra da edəcəyəm. Bütün işlərimdə mən xalqa arxalanıram. Əgər təşəbbüslərimiz xalq tərəfindən dəstəklənməsəydi, bütün bu işləri görmək mümkün olmazdı", - deyən ölkə başçısı idarəçilikdə, fəaliyyətdə, düşüncədə yenilik və sivil dəyərlərin tətbiqini zəruri sayır.

Dövlət başçısının gerçəkləşdirdiyi uğurlu diplomatiya son 15 ildə Azərbaycanın bölgədə və dünyada layiqli yerini tapmasını, regional liderliyini təmin edib. Ulu Öndərin imzalanmasına nail olduğu tarixi əhəmiyyətli "Əsrin müqaviləsi"nin davamı olaraq Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin istismara verilməsi, TAP, TANAP layihələrinin reallaşdırılması, üç süni peykin orbitə buraxılması Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki mövqelərini daha da gücləndirib. Dövlətimizin başçısı cənab İlham Əliyevin diplomatik səyləri nəticəsində Bakı-Tbilisi-Qars dəmiryolu layihəsi də uğurla gerçəkləşib, respublikamızın Şərqlə Qərb arasında tranzit-kommunikasiya imkanları genişlənib. Xatırlatmaq yerinə düşər ki, 2018-ci il mayın 29-da Cənub Qaz Dəhlizinin, iyunun 12-də isə onun tərkib hissəsi olan TANAP boru kəmərinin rəsmi açılış mərasimi olub, bu layihələrin icrası Azərbaycanın regionda və Avropada geoiqtisadi əhəmiyyətini artırıb. Eyni zamanda, 2018-ci ildə Ələt-Astara-İran İslam Respublikası magistral avtomobil yolunun istifadəyə verilməsi mühüm hadisələrdən biridir. Bir sözlə Azərbaycan Avrasiya məkanında enerji və nəqliyyat xəritələrini dəyişən bir ölkədir.

### Regionların inkişafında tarazlıq

Ulu Öndər hələ sovet dövründə Azərbaycanı qarış-qarış gəzməyə üstünlük verirdi. Respublikanın hər bir guşəsinə səfər edən, inkişafla maraqlanan, insanların həyat tərzi ilə tanış olan Heydər Əliyev bu siyasəti yorulmadan həyata keçirirdi. Bununla da o, Azərbaycan insanını daha yaxından tanıdı, onların ənənələrini, mənəvi dəyərlərini və digər milli keyfiyyətlərini ümumiləşdirərək vahid ideologiyanın əsasını qoydu. Təbii ki, bunların hamısı Azərbaycanın gələcək müstəqilliyinə, regionların iqtisadi inkişafına hesablanmışdı. Prezident İlham Əliyevin 2003-cü ildən etibarən iqtisadi sahədə həyata keçirdiyi siyasətin uğurlarını şərtləndirən əsas amillərdən biri də məhz inkişafın mərkəz və regionlar üzrə tarazlı xarakter daşıması, rentabelli istehsal sahələrinin ölkənin bütün regionlarını əhatə etməsi, yerli resurslardan istifadənin səmərəliliyinin artırılması, infrastrukturun yeniləşdirilməsi tədbirləri ilə sıx şəkildə bağlıdır. Məhz bu iqtisadi strategiya regionlarda sahibkarlığın inkişafını sürətləndirməklə, oradakı əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadə edilməsinə imkan yaradıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramları 2004-cü ildən başlayaraq regionların iqtisadi inkişafında tamamilə yeni səhifə açmış, insanların kəndlərdən şəhərlərə axınının qarşısını almış, xüsusilə də qeyri-neft sektorunun, sahibkarlığın inkişafına xüsusi təkan vermişdir.

2004-2018-ci illər ərzində reallaşdırılan regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının təhlili göstərir ki, ötən müddətdə ölkənin makroiqtisadi göstəricilərində regionların xüsusi çəkisi əhəmiyyətli dərəcədə yüksəlib. Yerlərdə sahibkarlığın inkişafının sürətləndirilməsi, yerli istehsal və emal müəssisələrinin fəaliyyətinin bərpası və genişləndirilməsi, iqtisadi və sosial-mədəni infrastruktur obyektlərinin yenidən qurulması, yoxsulluğun azaldılması, yeni iş yerlərinin açılması nəticəsində əhalinin həyat səviyyəsinin yüksəldilməsi istiqamətində böyük uğurlar əldə olunub. Azərbaycan Prezidentinin 2019-cu il 29 yanvar tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" qarşıdakı illərdə də bölgələrin inkişafında yeni mərhələ olacaqdır.

Statistik göstəricilər son 15 ildə Azərbaycan iqtisadiyyatının inkişafını və dayanıqlılığını bir daha təsdiq edir. Ötən dövrdə ölkənin strateji valyuta ehtiyatları 27 dəfə artaraq 46,7 milyard ABŞ dollarına çatıb. 2004-2018-ci illərdə ümumi daxili məhsul real ifadədə 3,2 dəfə, o cümlədən qeyri-neft sektoru 2,7 dəfə artıb. Davamlı sosial-iqtisadi inkişafın təmin edilməsi məqsədilə dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu xərcləri dinamik olaraq artıb, investisiya xərcləri dövlət büdcəsində əhəmiyyətli çəkiyə malik olub. Dövlət proqramlarının icrası nəticəsində regionların tərəqqisinə 50 milyard manatdan çox vəsaitin yatırılması inkişafdakı tarazlığı təmin edib. Son 15 ildə açılmış 1,9 milyona yaxın iş yerinin 50 faizdən çoxunun məhz regionların payına düşməsi də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin regional siyasətinin uğurlarının əyani təcəssümüdür.

### Daimi prioritet - insan amili

Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş iclası respublikamızın dinamik inkişaf yolunda olduğunu bir daha təsdiqləyir. İclasda səslənən statistik rəqəmlər dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən islahatların səmərəliliyini və insan amilinin yüksəlişinə xidmət etdiyini bir daha nümayiş etdirir. Hesabat dövründə dövlət büdcəsinə vergi və gömrük orqanlarının xətti ilə 200 milyon manatdan əlavə vəsait toplanıb, ümumi daxili məhsul 3 faiz, sənaye istehsalı 4,4 faiz, qeyri-neft sektorunda sənaye istehsalı 15,6 faiz artıb. Hesabat dövründə kənd təsərrüfatının 3,6 faiz, əhalinin gəlirlərinin 5,5 faiz artması, inflyasiyanın aşağı həddə - 2,1 faiz olması, ölkə iqtisadiyyatına 2,8 milyard dollar sərmayənin qoyulması inkişafdakı müsbət dinamikanın əyani göstəriciləri kimi qeyd olunmalıdır.

Azərbaycanda sahibkarlığın inkişaf etdirilməsi ilə bağlı aparılan siyasət, görülmüş işlər nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan Respublikası 2016-cı ildəki 63-cü yerdən 2019-cu ildə 25-ci yerə yüksəlməyə nail olub. Davos İqtisadi Forumunun hesabatına əsasən, Azərbaycan iqtisadiyyatı 2018-ci ildə rəqabət qabiliyyətinə görə 138 ölkə arasında 35-ci yerdədir və ardıcıl olaraq 8 ildir ki, MDB ölkələri arasında birincidir. Forumun "İnklüziv İnkişaf İndeksi 2018" hesabatında Azərbaycan ən yaxşı inkişaf etməkdə olan ölkələr sırasında üçüncü, MDB məkanında isə birinci yerdə qərarlaşıb. BMT İnkişaf Proqramının insan inkişafı indeksinə görə, Azərbaycan "orta insan inkişafı" qrupu ölkələrini tərk edərək, "yüksək insan inkişafı" ölkələri kateqoriyasına daxil olub.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin son 15 ildə yürütdüyü sosialyönümlü siyasətin məqsədi təkcə sosial bərabərsizliyi aradan götürmək deyil, həm də onu tarazlaşdırmaq, vətəndaşların maddi vəziyyətindəki fərqliliyi aradan qaldırmaq, kəskin təbəqələşməyə yol verməmək, cəmiyyətin bütün üzvlərinin layiqli həyat səviyyəsini təmin etməkdən ibarətdir. Dövlət başçısı tərəfindən son 10 ildə imzalanmış sərəncamlar sosial təminat və yoxsulluğun səviyyəsinin aşağı salınması baxımından mühüm əhəmiyyətə malikdir. Bu və digər faktlar göstərir ki, ölkədə bazar iqtisadiyyatı prinsiplərinin cəmiyyətdə möhkəm dayaqlar tapması, iqtisadiyyatın liberallaşdırılması sosial himayəyə ehtiyacı olan vətəndaşların maraqları ilə qətiyyən ziddiyyət təşkil etmir. Əksinə, əldə edilən dividendlər insanların sosial problemlərinin həllinə, vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəldilir. 2018-ci ilin 11 aprel seçkilərindən sonra sosialyönümlü islahatlarda keyfiyyətcə yeni mərhələnin başlanması, xüsusən də bu ilin əvvəlindən başlayaraq əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən kompleks tədbirlərin həyata keçirilməsi Azərbaycanın "sosial dövlət" konsepsiyasına sadiqliyinin bariz göstəricisidir.

Son aylarda Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi zamanı şəhid olmuş insanların ailələrinə 11 min manat məbləğində birdəfəlik ödəniş edilib, minimum əməkhaqqı, sosial müavinət, pensiya və təqaüdləri artırılıb, zəlzələdən ciddi zərərçəkmiş vətəndaşlar üçün evlərin inşa edilməsinə, devalvasiya nəticəsində banklara borcu yaranmış vətəndaşların borclarının müəyyən şərtlər çərçivəsində kompensasiya edilməsinə başlanılıb, yanğından zərərçəkmiş sahibkarlara kompensasiya ödənilib. Bu və digər sosialyönümlü addımlar, şübhəsiz, vətəndaşlar tərəfindən də rəğbətlə qarşılanır.

İslahatların hazırkı mərhələsində mütərəqqi meyarlara söykənən çevik idarəetmə modelinin formalaşdırılması Azərbaycan üçün də kifayət qədər aktualdır. Son illərdə həyata keçirilən kadr islahatlarının əsas məqsədini əhalinin sosial rifahının yaxşılaşdırılması, neftdən asılı olmayan dayanıqlı inkişaf strategiyasının formalaşdırılması ilə yanaşı, ümumilikdə, dövlət idarəçilik fəlsəfəsinin dəyişdirilməsi təşkil edir. Prezident İlham Əliyev, ilk növbədə, vətəndaşların mənafeyini düşünərək dövlət idarəetməsi ilə bağlı bu və digər qərarlar qəbul edir, struktur islahatları həyata keçirir. Dövlət başçısının 2019-cu il 14 yanvar tarixli "Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanı idarəetmə sistemində çevikliyin və səmərəliliyin təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

2018-ci ilin 11 aprel seçkilərinin nəticələri bir daha sübut etdi ki, Azərbaycan cəmiyyəti uzun illərin sərt sınaqlarından üzüağ çıxaraq yüksək etimad qazanmış Heydər Əliyev siyasətinə sadiqdir. Cəmiyyətdə mütləq çoxluğun lider olaraq qəbul etdiyi Prezident İlham Əliyev ölkəmizin perspektiv inkişafı üçün qarşıda duran strateji hədəfləri inamla gerçəkləşdirmək, Azərbaycanı yaxın illərdə ən müasir və inkişaf etmiş dövlətə çevirmək istiqamətində əzmlə, yorulmadan, qətiyyətlə çalışır. Heç şübhə yoxdur ki, müstəqil Azərbaycanı qarşıdan gələn illərdə daha böyük nailiyyətlər gözləyir.

# “Müstəqil Azərbaycan dövlətinin qurucusu”

## *Səbail rayon icra hakimiyyəti və YAP Səbail rayon təşkilatının birgə təşkilatçılığı ilə bu adda kitabın təqdimatı keçirilib*









Dünən Azərbaycan Milli İncəsənət Muzeyində Səbail rayon icra hakimiyyəti və YAP Səbail rayon təşkilatının birgə təşkilatçılığı ilə Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, Yeni Azərbaycan Partiyasının yaradıcısı Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü ilə bağlı tədbir və “Müstəqil Azərbaycan dövlətinin qurucusu” adlı kitabın təqdimatı keçirilib. Qeyd edək ki, Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatı və Səbail rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən elmi-praktiki konfransların və “dəyirmi masa”ların materialları əsasında hazırlanan və geniş oxucu auditoriyası üçün nəzərdə tutulan “Müstəqil Azərbaycan dövlətinin qurucusu” kitabı Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatı və Səbail rayon icra hakimiyyətinin birgə təşəbbüsü və təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95 və Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyləri münasibətilə Azərbaycan Dövlət Pedaqoji Universitetində, Mirzə Fətəli Axundov adına Azərbaycan Milli Kitabxanasında, “Səs” Media Qrupunun redaksiyasında, Azərbaycan Teatr Xadimləri İttifaqında və YAP Səbail rayon təşkilatının qərargahında keçirilmiş elmi-praktik konfransların, “Heydər Əliyev və müasir Azərbaycan”, “Yeni Azərbaycan Partiyası - qələbələr partiyasıdır”, “YAP və müasir Azərbaycan gəncliyi: nailiyyətlər və perspektivlər” mövzularında təşkil olunmuş “dəyirmi masa”ların, eləcə də, partiyanın “Qızıl fondu” adlandırılan “91-lər” və gənclərlə keçirilmiş görüşlərin materialları əsasında hazırlanıbdır.

Tədbirdə Səbail rayon icra hakimiyyətinin başçısı Vüqar Zeynalov, YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı prof. Şəmsəddin Hacıyev, deputatları, həmçinin dövlət və hökumət rəsmiləri, universitet rektorları, elm, təhsil, incəsənət və din xadimləri, ağsaqqallar, ziyalılar, gənclər, veteranlar və rayon ictimaiyyəti nümayəndələri iştirak edib. İlk öncə, qonaqlar muzeyin foyesində Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən foto-sərgi ilə tanış olublar.

Tədbiri giriş sözü ilə açan YAP Səbail rayon təşkilatının sədri, millət vəkili Şəmsəddin Hacıyev Ulu Öndər Heydər Əliyev müdrikliyi, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində müasir, müstəqil Azərbaycan dövlətinin dünya ölkələri ilə bir sırada dayanmasına, beynəlxalq məsələlərdə söz sahibinə çevirilməsinə nail olunub. Ş.Hacıyev qeyd edib ki, Ümummilli Liderin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən köklü siyasi, iqtisadi dəyişikliklər nəticəsində, bütün sahələrində tənəzzülə son qoyulub.

Tədbirdə Azərbaycan Respublikası Ağsaqqallar Şurasınnı sədri, millət vəkili Fəttah Heydərov çıxış edərək bildirib ki, Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqının müdriklik simvoludur: “Zamanın, tarixin yetişdirdiyi dahilərə Allah bir xilaskarlıq missiyası verir - xalqını məhvolma təhlükəsindən qurtarmaq, öz işıqlı ideyaları və əməlləri ilə insanları uzun illər həsrətində olduğu azadlığa, müstəqilliyə qovuşdurmaq missiyasını... Allah xalqımıza bu şərəfli missiyanı daşımaq üçün Böyük İnsan, Müdrik Xilaskar Heydər Əliyevi göndərmişdi. Həyat və fəaliyyəti tarix üçün bir örnək, xalq üçün bir nümunə olan Ümummilli Lider Heydər Əliyev nəsillərin minillik arzusunu tarixi reallığa çevirdi. Azərbaycan xalqına böyük zəhməti hesabına ərsəyə gətirdiyi şah əsərini - müstəqil-demokratik Azərbaycanı bəxş etdi. O, Azərbaycanı öz şəxsi nüfuzu və əməli fəaliyyəti ilə dünyada tanıtdırdı, Avropa ölkələri ailəsinin tamhüquqlu üzvləri sırasına çıxardı. Ölkəmiz Qafqaz regionunun iqtisadi və hərbi təsir gücünə malik ən nüfuzlu dövlətinə çevrildi”.

Tədbirdə YAP İcra katibinin müavini, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxış edərək Ümummilli Lider Heydər Əliyevin zamanın fövqündə dayanan lider olduğunu vurğulayıb: “Bəzən deyirlər ki, şəxsiyyət tarixi deyil, tarix şəxsiyyəti yaradır. Ancaq Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyəti sübut edir ki, tarixdə ayrı-ayrı şəxsiyyətlər müəyyən xalqın taleyində həlledici rol oynaya, taleyüklü hadisələrin axarını dəyişə bilər. Əminliklə demək olar ki, müasir Azərbaycan tarixinin keşməkeşli səhifələrində Ulu Öndər Heydər Əliyev fenomeninin xalqımızın taleyində oynadığı müsbət rol danılmazdır”.

M.Qurbanlı onu da vurğulayıb ki, Ümummilli Lider cəmiyyətdə milli məfkurənin güclənməsi, milli dövlətçilik şüurunun yenidən formalaşması üçün hər bir azərbaycanlının yüksək təhsil almasını, elmi yenilikləri mənimsəməsini son dərəcə vacib amil hesab edirdi. Buna görə də, əminliklə deyə bilərik ki, Azərbaycan tarixində ikinci milli maarifçilik hərəkatı, məhz Onun adı ilə bağlıdır.

Millət vəkili Hadı Rəcəbli Ulu Öndər Heydər Əliyev haqqında danışarkən bildirdi ki, Azərbaycan xalqı may ayının 10-nu - öz böyük oğlu Heydər Əliyevin anadan olduğu günü tarixin ən əziz günlərindən biri kimi qeyd edir: “Ulu Öndər Heydər Əliyev şəxsiyyəti Azərbaycan tarixində, milli siyasi təfəkkürümüzdə, dövlətçilik şüurumuzda çox böyük məna yükü daşıyan fenomenə çevrilmişdir. Bu fenomenin bu böyük insanın öz millətinə, Vətəninə həsr olunan şərəfli ömür yolu, bir qərinədən artıq Azərbaycana rəhbərlik fəaliyyəti, xalqın öz həqiqi liderinə olan böyük sevgisi və inamı yaratmışdır. Və bu gün Ümummilli Liderimizin xatirəsi Onu həmişə əziz tutan milyonları bir daha öz işığına toplayır, öz nuruna bürüyür”.

Millət vəkili Musa Quliyev bildirib ki, müstəqil Azərbaycanı böyük dünya siyasətinə qovuşduran siyasi Liderin - Heydər Əliyevin həyatı və irsi barədə düşünərkən gözlərimiz önündə Onun heyrətamiz intellekti, işıqlı ideyaları, xüsusilə, dəyərli əxlaqi və siyasi siması canlanır: “Bu dahi şəxsiyyətlə bağlı hər hansı bir fikir söyləyərkən, böyük şərəf və məsuliyyət hissi keçirirsən. Çünki fərdi-subyektiv ölçülərə sığmayan Ulu Öndər Heydər Əliyev şəxsiyyətini dəyərləndirməyə cəhd etmək tarixə, zamana və gələcəyə qiymət vermək qədər çətindir. Ona görə də, Heydər Əliyev siyasi tariximizə qurucu və xilaskar kimi daxil olmuş görkəmli dövlət xadimi, Ümummilli Lider və xalq məhəbbətini qazanan dahi bir şəxsiyyətdir. Xalqımızın tarixi taleyində, mənəvi, siyasi və ictimai həyatında Onun qədər misilsiz xidmətlər göstərən dövlət adamı tapmaq çətindir. Bu mənada, o, xalqımızın milli iftixarı, ürəklərimizdə özünə yer tapan Ümummilli Lider Liderimiz olmaqla yanaşı, həm də bütün dünyanın etiraf etdiyi görkəmli Liderdir”.

“Yeni Azərbaycan” qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu Azərbaycanın qurucusu, ölkəmizin dünyaya tanıdılması istiqamətində böyük işlər görən Heydər Əliyev siyasətindən danışaraq bildirdi ki, Ümummilli Liderin adı hər bir kəsin qəlbində sadəliyi, səmimiyyəti, vətənpərvərliyi və digər yüksək insani dəyərləri ilə unudulmaz iz buraxıb: “Parlaq zəkası, dövlətçilik təcrübəsi, yenilməzliyi və cəsarəti ilə müstəqil Azərbaycan dövlətini məhvolma təhlükəsindən qoruyub-saxlayan, onu yaşadan və bu dövlətin bütün atributlarını qurub-yaradan Ümummilli Lider Heydər Əliyevin Vətən və xalq qarşısında xidmətləri əvəzsizdir. Azərbaycanın hərtərəfli inkişafı Ulu Öndər Heydər Əliyevin adı, şəxsiyyəti, dövlətçilik təfəkkürü, idarəetmə məharəti və yorulmaz fəaliyyəti ilə sıx bağlı olmuşdur. Azərbaycan xalqının müdriklik simvolu, müdriklik zirvəsi idi. Ümummilli Lider Heydər Əliyevin müdrik siyasətinin dəyəri, məhz elmi prinsiplər üzərində qurulması, intellektual potensiala və malik olduğu zəngin təcrübəyə əsaslanmasında idi”.

**Ardı Səh. 13**

# “Müstəqil Azərbaycan dövlətinin qurucusu”

## *Səbail rayon icra hakimiyyəti və YAP Səbail rayon təşkilatının birgə təşkilatçılığı ilə bu adda kitabın təqdimatı keçirilib*




**Əvvəli-Səh-12**

Tədbirdə çıxış edən “SƏS” qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, ilk növbədə, böyük AZƏRBAYCANLI olduğunu bildirib: “Ulu Öndər Heydər Əliyev, ilk növbədə, böyük azərbaycanlı idi və Onun bizlərə miras qoyduğu azərbaycançılıq ideologiyası xalqımızın və dövlətçiliyimizin möhkəmləndirilməsində əhəmiyyətli rolunu oynayıb”.

B.Quliyev onu da vurğulayıb ki, məhz Ulu Öndərin uzaqgörənliyi nəticəsində Azərbaycanda xalq-iqtidar birliyi formalaşdırılmağa başlandı və nəticədə qüdrətli və güclü dövlətin təməlləri qoyuldu: “Bu danılmaz reallıq ölkəmizin çoxşaxəli inkişafında, sabitliyə doğru irəliləməsində, dünya birliyində layiqli yer tutmasında və bu birlikdə yer almasında öz müsbət təsirlərini göstərdi. Azərbaycan xalqı əminliklə öz Liderinə etimad etdi və bu etimad, təbii ki, hər bir azərbaycanlının gələcəyə inamlı baxışında öz təşəkkülünü tapmış oldu”.

B.Quliyev, həmçinin bildirib ki, Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq məfkurəsi ideyasındakı təməl prinsiplərindən biri də milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində qurduğu siyasi konsepsiyası olub: “Çünki hər bir xalqın özünəməxsus milli-ideoloji baxışı var və Ulu Öndər Heydər Əliyev bu mühüm məqamı, bilavasitə dövlətçilik, azərbaycançılıq siyasəti ilə sintezləşdirərək, möhkəm təməlləri qoymuş oldu. Və bu gün həmin gerçəklik bir ənənə şəklini alıb və əbəs deyil ki, Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun davamı olaraq qiymətləndirilir. Bu kursu davam etdirməklə yanaşı, həm də inkişaf etdirən Prezident İlham Əliyevin yürütdüyü siyasətin təməlində azərbaycançılıq ideologiyasından qaynaqlanan xalq-iqtidar vəhdəti dayanmaqdadır”.




Tədbirdə millət vəkili, politoloq Elman Nəsirli çıxış edərək Ümummilli Liderin müstəqil dövlətimizin qurulması və möhkəmləndirilməsi sahəsində çoxşaxəli və yorulmaz fəaliyyətindən, Azərbaycanın inkişafında misilsiz xidmətlərindən söz açıb. Vurğulayıb ki, bu dahi şəxsiyyət zaman və məkan anlayışına sığmayaraq öz xalqının təkcə sevimlisinə yox, həm də idealına çevrilib. Tədbirin sonunda YAP Səbail rayon təşkilatının sədri, millət vəkili Şəmsəddin Hacıyev Ulu Öndər Heydər Əliyevin Azərbaycan iqtisadiyyatının inkişayında böyük uğurlara nail olunduğunu vurğulayıb. Bildirib ki, iqtisadiyyatı güclü olan dövlət də güclüdür: “Qeyd etmək lazımdır ki, hələ sovet dövrünün sonu və müstəqilliyin ilk illərində (1988-1993) bir-birini tez-tez əvəzləyən və hakimiyyəti qanunsuz, zorla ələ keçirən səriştəsiz, səmərəsiz idarəçiliyə malik olan və milli maraqları arxa plana keçirən biabırçı hakimiyyətlər dövrü iqtisadi inkişafımızı, ən azı 13 il geri salmışdı. Bu fakt statistik göstəricilərdə də öz təsdiqini tapır. Belə ki, 1993-cü ildə ölkəmizdə istehsal olunmuş ümumi daxili məhsul iki dəfədən çox aşağı düşərək 1988-ci ilin müvafiq göstəricisinin 49,9 faizinə bərabər olmuşdur. Ölkəmiz itirilmiş iqtisadi potensialını yalnız 13 ildən sonra tamamilə bərpa edə bildi və məhz Ulu Öndər Heydər Əliyev və Onun layiqli siyasi varisi Prezident İlham Əliyevin siyasəti sayəsində bu dövrdə istifadə olunması mümkün olan bütün iqtisadi və siyasi resurslardan, düzgün dövlət idarəçiliyi sisteminin üstünlüklərindən məharətlə və daha səmərəli istifadə etməklə ölkəmizi






düçar olduğu, nəinki iqtisadi, siyasi, mədəni və institusional böhran vəziyyətindən xilas olunmasına, eləcə də, ölkədə ictimai-siyasi sabitliyə, iqtisadi və sosial yüksəlişə, vətəndaş birliyinə nail olundu. Ölkəyə rəhbərlik etdiyi 10 il ərzində Azərbaycanı məhv olmaq təhlükəsindən xilas etməklə, sözün əsl mənasında, böyük xilaskarlıq missiyasını həyata keçirmiş Ulu Öndər Heydər Əliyevin ən böyük tarixi missiyalarından biri də özünün etibarlı siyasi varisini müəyyənləşdirməsi və qurucusu olduğu müasir Azərbaycanı etibarlı əllərə əmanət etməsi oldu. Azərbaycan dövlətçiliyinin gələcək inkişaf yolu və siyasi xəttini hər zaman düşünən Ulu Öndər Heydər Əliyevin İlham Əliyev haqqında Azərbaycan xalqına tarixi müraciətində dediyi: “...Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası Sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər”. Sonda böyük tirajla və nəfis tərtibatla nəşr olunan kitab tədbir iştirakçılarına təqdim olundu.

**RƏFİQƏ KAMALQIZI**

# “Nar”-ın dəstəyi ilə keçiriləcək NETTY-2019 mükafatına sənəd qəbulu davam edir

***“Nar”-ın əsas tərəfdaşlığı ilə keçiriləcək NETTY-2019 Azərbaycanın milli internet mükafatı üçün sənəd qəbulu davam edir. Müsabiqədə iştirak etmək üçün ərizə qəbulu mayın 24-də başa çatacaq. Qeyd edək ki, ərizələr http://www.netty.az saytında qəbul edilir. Mayın 24-dən 31-dək mükafatın nominantlar siyahısını formalaşdıran Ekspert Şurasının və Virtual münsiflər heyətinin səsverməsi keçiriləcək.***

01 iyunda isə NETTY Akademiyası nominantlar sırasından qaliblərin müəyyən edilməsi üçün səsverməyə başlayacaq.

Müsabiqə çərçivəsində aşağıdakı nominasiyalar üzrə Azərbaycanda ən yaxşı resurslar elan olunacaq: “Dövlət”, “İqtisadiyyat və Biznes”, “Təhsil və Elm”, “Mədəniyyət və Yaradıcılıq”, “İnformasiya və Xəbərlər”, “Elektron Xidmətlər və Ticarət”, “İlin İT-Hadisəsi” nominasiyaları və s. NETTY mükafatı hər il ən yaxşı Azərbaycan İT layihələrini, əhəmiyyətli veb-resursları və informasiya texnologiyaları sahəsində peşəkarları müəyyən edir və onları mükafatlandırır. NETTY Azərbaycan milli internet mükafatı 2004-cü ildə təsis edilib. Ümumdünya şəbəkəsinin milli seqmenti və İKT bazarının inkişafı məqsədilə yaradılmış NETTY, informasiya texnologiyaları sahəsində Azərbaycanın ilk peşəkar mükafatıdır.

nar

# Vüqar Rəhimzadə: Heydər Əliyevin irsi Azərbaycan xalqının milli sərvətidir



***Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində Heydər Əliyev dövrü bənzərsizdir. Bu dövrün hər bir mərhələsi müasir tariximizin bütöv bir salnaməsini təşkil edir. Tariximizi vərəqlədikcə ulu öndər Heydər Əliyevin dövlətimiz, xalqımız qarşısındakı xidmətlərinin miqyasının nə qədər geniş olduğunu daha aydın görür, möhkəm təməl üzərində addımlayan Azərbaycanın uğurları fonunda Heydər Əliyev yolunun qarşıdakı illərdə daha yüksək zirvələri fəth etməyimizə əsas yaratdığını böyük qürur hissi ilə qeyd edirik. Ümummilli Liderin şah əsəri olan müasir müstəqil Azərbaycan harada yaşamasından asılı olmayaraq, bütün azərbaycanlılar üçün qürur mənbəyidir.***

Bu fikirləri YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü ilə bağlı AZƏRTAC-a açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, dahi şəxsiyyət Heydər Əliyevin "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" tezisi hər birimizin həyat amalına çevrilməklə yanaşı, azərbaycançılıq məfkurəsi ətrafında birliyimizə, həmrəyliyimizə, Vətənə, dövlətə, xalqa bağlılığımıza, vətənpərvərlik hissinin daha da artırılmasına bir çağırışdır. Ümummilli Liderin fəaliyyətinin əsasında dayanan xilaskarlıq missiyası da onun Vətən, xalq sevgisindən qaynaqlanırdı. Hakimiyyətinin hər iki dövründə Azərbaycanın tarixinə biri-birindən önəmli uğur səhifələrini yazan ulu öndər Heydər Əliyev "Azərbaycan dünyaya günəş kimi doğacaq" çağırışını da etmişdir.

YAP Siyasi Şurasının üzvü vurğulayıb ki, bu günümüzdən müstəqilliyimizin ilk illərinə bir baxış keçirsək, atılan addımların, görülən işlərin mahiyyətini, əhəmiyyətini daha dərindən dərk edirik. Müstəqilliyimizin ilk illəri Azərbaycanın tarixinə xaos, anarxiya, özbaşınalıq, iqtisadi tənəzzül dövrü kimi yazılıb. Həmin illərdə xalqımızın sabaha ümidi tamamilə itmişdi. "Olum, ya ölüm" dilemması qarşısında qalan Azərbaycan xalqı onu bu vəziyyətdən çıxaracaq yeganə liderin ulu öndər Heydər Əliyev olduğunu onun yenidən hakimiyyətə qayıtması çağırışını etməklə bildirdi. Hər zaman xalqının yanında olan ulu öndər Heydər Əliyev yenə də xalqın təkidli tələbini müsbət cavablandıraraq hakimiyyətə qayıtdı. 1993-cü il 15 iyunun Azərbaycanın tarixinə Milli Qurtuluş Günü kimi daxil olması səbəbsiz deyil. Azərbaycan xaosdan, anarxiyadan, özbaşınalıqdan xilas oldu, inkişaf yoluna çıxdı. Ulu öndər Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində Azərbaycan qısa müddətdə sabitlik diyarına çevrildi. Ölkəmizin malik olduğu təbii resurslardan səmərəli istifadə etməsi məqsədilə 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması ulu öndər Heydər Əliyevin iqtisadiyyatın inkişafında neft amilinə yüksək dəyər verməsinin, ən əsası uzaqgörən siyasətinin nəticəsi idi. Çoxlarına əfsanə kimi görünən BTC və BTƏ neft-qaz kəmərlərinin reallığa çevrilməsi Azərbaycanı regionun aparıcı qüvvəsinə, Avropanın enerji təhlükəsizliyinin təminatçısına çevirdi. Bu layihələr, eyni zamanda, Azərbaycanın bu gününə və gələcəyinə inamı artırmaqla yeni-yeni layihələrin gündəmə gətirilməsini şərtləndirdi. Dövlətimizin başçısı İlham Əliyevin "Əsrin müqaviləsi"nin 20 illiyi və Cənub Qaz Dəhlizinin təməlinin qoyulması mərasimində qeyd etdiyi kimi, bu mühüm hadisə bu günə qədər görülən işlərin zirvəsidir. 2014-cü ildə təməli qoyulan Cənub Qaz Dəhlizinin 4 ildən sonra - 2018-ci ilin mayında rəsmi açılışı ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının uğurlarıdır. "Əsrin müqaviləsi"nin 23 illiyi ərəfəsində, 2017-ci ildə "Yeni əsrin müqaviləsi" imzalandı. Bu kimi biri-birindən mühüm hadisələr Azərbaycanın beynəlxalq aləmdə möhkəmlənən etibarlı tərəfdaş mövqeyini bir daha gücləndirdi.

V.Rəhimzadə bildirib ki, Azərbaycanın iqtisadi uğurlarının davamlılığı siyasi mövqeyinin möhkəmlənməsinə də geniş yol açdı: "Ulu öndər Heydər Əliyev müstəqillik yolunda yenicə addımlarını atan ölkələrin qarşısında dayanan vəzifələrdən bəhs edərkən daim iki və çoxtərəfli çərçivədə əlaqələrin qurulmasını vacib amil kimi vurğulayırdı. Azərbaycan qısa müddətdə dünya birliyinin fəal üzvünə çevrildi. Müstəqil dövlət kimi varlığını daha da möhkəmləndirmək üçün diaspor quruculuğunu dövlət siyasətinin əsas tərkib hissəsinə çevirdi. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi bütün soydaşlarımıza bir çağırış oldu ki, Vətən birdir və hamı bu Vətən uğrunda çalışmalıdır. Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə dolğun şəkildə çatdırılması, öz növbəsində, yeganə problemimiz olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətinin daha dərindən dərk olunmasına yol açdı. Ulu öndər Heydər Əliyevin düşünülmüş siyasəti nəticəsində erməni yalanları ifşa olundu, ölkəmizin ətrafında yaradılan informasiya blokadası yarıldı".

"Azərbaycanın bu uğurlarını şərtləndirən əsas amil təbii ki, demokratik inkişafdır" söyləyən V.Rəhimzadə bildirib ki, ulu öndər Heydər Əliyevin uğurlu daxili siyasəti nəticəsində ölkəmizdə demokratik cəmiyyətin mövcudluğunu təsdiqləyən bütün atributlar bərqərar oldu. İnsan hüquq və azadlıqlarının qorunması, mətbuat azadlığının təmin edilməsi, çoxpartiyalı sistemin yaradılması, seçkilərin demokratik və beynəlxalq standartlara uyğun keçirilməsi üçün zəruri olan bütün addımlar atıldı. Mətbuatın üzərindən senzuranın götürülməsi, ölüm hökmünün ləğvi kimi biri-birindən önəmli addımlar ulu öndər Heydər Əliyevin humanizm siyasətinin əsas tərkib hissələridir. Dahi şəxsiyyət Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanan və referendum yolu ilə qəbul olunan milli Konstitusiyamız Azərbaycanın demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolunda inamla addımlamasına yol açdı.

V.Rəhimzadə diqqətə çatdırıb ki, ulu öndər Heydər Əliyevin fəaliyyətinin hər bir sahəsi bir araşdırma mövzusudur: "Reallıq budur ki, Azərbaycan müstəqil dövlət olaraq öz varlığını təsdiqlədi, sözünün imzası qədər dəyəri olduğunu bir daha nümayiş etdirdi. Bu gün Azərbaycan ulu öndər Heydər Əliyevin formalaşdırdığı möhkəm təməl üzərində inamla addımlayır. Ümummilli Liderin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev ilk gündən Azərbaycanın daha qüdrətli, güclü dövlətə çevrilməsi üçün Heydər Əliyev siyasətinin davam etdirilməsinin vacibliyini bəyan etdi. Son 15 il bu vədin konkret əməli işdə öz təsdiqini tapdığını göstərir. Cənab İlham Əliyevin 2003-cü, 2008-ci, 2013-cü və 2018-ci illərdə prezident seçkilərində inamlı qələbəsi Heydər Əliyev siyasətinin təntənəsidir. Xalqımız Heydər Əliyev ideyalarına sədaqətini məhz onun layiqli davamçısı cənab İlham Əliyevi yekdilliklə dəstəkləməklə ifadə edir. Bu gün hansı sahəyə diqqət yetirsək inkişafın şahidi olarıq. Cənab Prezidentimiz İlham Əliyevin vurğuladığı kimi, bugünkü Azərbaycan ulu öndər Heydər Əliyevin görmək istədiyi Azərbaycandır".

V.Rəhimzadə onu da qeyd edib ki, ulu öndər Heydər Əliyevin dövlətimiz, xalqımız qarşısında xidmətlərindən bəhs edərkən bu gün cəmiyyətin aparıcı siyasi qüvvəsinə çevrilən Yeni Azərbaycan Partiyasının yaradıcısı olduğunu xüsusi qeyd etməliyik. "Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır" söyləyən Ümummilli Lider bu fikirləri ilə partiyanın gələcəyinə inamını aydın şəkildə ifadə etmişdir. Hazırda sıralarında 730 mindən artıq üzvü birləşdirən Yeni Azərbaycan Partiyasına milyonların sevgisi şəksizdir.

Baş redaktor Ulu Öndərin irsinin təbliği məqsədilə yaradılan Heydər Əliyev Fondunun bu istiqamətdə həyata keçirdiyi layihələrdən də geniş bəhs edərək, görülən işləri Fondun prezidenti, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Ümummilli Liderin anadan olmasının 96-cı ildönümü və Heydər Əliyev Fondunun fəaliyyətə başlamasının 5 illiyi münasibətilə keçirilən mərasimdə söylədiyi "Heydər Əliyevin həyatı böyük bir epoxanın aynası kimi ölkəmizin sevincli-kədərli günlərini və anlarını, Azərbaycanın bu tarix yollarını özündə əks etdirir. Məhz Heydər Əliyevin həyatı və fəaliyyəti sübut etdi ki, əlçatmaz xəyalların və arzuların reallaşması insan fenomeninin gücünə mümkündür. Səksən il sürən bu şərəfli ömür sübut etdi ki, böyük və nadir insanlar doğulduqları andan ömrünün sonuna qədər yüksək və ali missiyanın daşıyıcıları olurlar. Onlar millətlərinin və ümumiyyətlə bəşər tarixinin inkişafında və tərəqqisində müstəsna və əvəzolunmaz rol oynamış olurlar. Yəqin ki, belə insanların ömrü elə bu səbəbdən alov kimi sönmədən, yorulmadan, dayanmadan, son nəfəsə qədər böyük bir məqsədə xidmət edir və əbədi mübarizəyə həsr olunur. Belə insanlar tarixin mürəkkəb anlarında bütün çətinlikləri dəf edərək həmişə zəfər çalır, qalib gəlirlər. Heydər Əliyev qalibiyyətinin nəticəsi müasir müstəqil Azərbaycan Respublikası və onun bugünkü nailiyyətləridir" fikirləri ilə ümumiləşdirib. Baş redaktor sonda vurğulayıb ki, ulu öndər Heydər Əliyevin haqqında çoxlu kitablar, elmi əsərlər yazılıb, fəaliyyətinin hər bir sahəsində araşdırmalar aparılıb, fikirlər səsləndirilib. Arxada qalan hər il Ulu Öndərin mənalı həyatı və titanik fəaliyyəti ilə bağlı daha yeni-yeni araşdırmaları zərurətə çevirir. Çünki dahi şəxsiyyətin xidmətlərinin miqyası o qədər geniş, bugünkü və gələcək nəsillərə çatdırılacaq məqamlar o qədər sonsuzdur ki, daim araşdırmalara, yeni-yeni elmi əsərlərə, kitablara ehtiyac yaranır. Hər birimiz Heydər Əliyev irsinin təbliğatçısı olmalı, Azərbaycanın daha qüdrətli, güclü dövlətə çevrilməsinə öz töhfəmizi verməliyik.

# Bakcell müharibə veteranlarına həsr olunmuş sərgiyə dəstək göstərib




Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti Böyük Vətən müharibəsi veteranlarından bəhs edən sərgiyə dəstək göstərib. 9 May - faşizm üzərində Qələbə Gününə həsr olunmuş "Qələbə ruhunu yaşadanlarımız" adlı sərgi "Baki Metropoliteni" QSC tərəfindən "Bakcell"in dəstəyilə "Gənclik" stansiyasının keçidlərində təşkil edilib. Foto-sərgidə Böyük Vətən müharibəsində qəhrəmancasına vuruşmuş canlı əfsanələr - azərbaycanlı veteranların fotolarından ibarət tablolar nümayiş olunur. Bununla yanaşı, Böyük Vətən müharibəsində Azərbaycanın rolu barədə maraqlı, diqqətçəkən məlumatların verildiyi stendlər də sərgilənir.

Müharibə iştirakçıları haqqında daha ətraflı məlumat almaq üçün sərgidəki şəklin altında yerləşdirilən QR koddan istifadə etmək lazımdır. Sərginin açılışı may ayının 7-də "Bakı Metropoliteni" QSC-nin və "Bakcell"in rəsmi nümayəndələri, həmçinin Böyük Vətən müharibəsi cəbhələrində döyüşmüş veteranların iştirakı ilə keçirilib.

# Reproduktiv sağlamlıq hüququ

***Əhalinin reproduktiv sağlamlığının qorunması həm Azərbaycan Respublikasında, həm də digər ölkələrdə saxlanmaqda olan neqativ demoqrafik meyillər və əhalinin depopulyasiyası şəraitində son illər idarəetmə orqanlarının və səhiyyə müəssisələrinin əsas fəaliyyət istiqamətlərindən biri dövlətin sosial siyasətinin səmərəliliyinin meyarı olmuşdur.***

Y.P.Jilyayeva, Y.V.Jilinskaya və V.Y.Semyonovun sözlərinə görə, insanın reproduktiv funksiyasının hüquqi nizamlanması, onun reproduktiv hüquqları haqqında ilk dəfə 1994-cü ilin sentyabrında Qahirədə keçirilən Əhali və İnkişaf üzrə Beynəlxalq Konfransda hərtərəfli danışılmışdır. Bu məsələ sonradan Qadınların Vəziyyətinə dair IV Ümumdünya Konfransının Məruzəsində və konfransın qəbul etdiyi Fəaliyyət Platformasında inkişaf etdirilmişdir. Dünyanın 180 dövləti sırasında Azərbaycan Respublikası da bu sənədi imzalamışdır.

Qahirə konfransında insanın inkişafı kontekstində reproduktiv sağlamlıq "sadəcə, xəstəliklərin, yaxud reproduktiv sistemlə, onun funksiyaları və prosesləri ilə bağlı hər bir şeydə şikəstliyin olmaması deyil, tam fiziki, əqli və sosial rifah vəziyyəti" kimi müəyyənləşdirilmişdir. Reproduktiv sağlamlığın qorunması isə - "bu sahədə problemlərin qarşısının alınması və həlli yolu ilə reproduktiv sağlamlığı qoruyan metod, texnologiya və xidmətlərin birləşməsi" kimi səciyyələndirilmişdir. Qahirə konfransının göstərilən fəaliyyət proqramı, ilk dəfə olaraq, müəyyən etmişdir ki, reproduktiv hüquqlar artıq əksər dövlətlərin milli qanunvericiliklərini, insan hüquqları üzrə beynəlxalq aktlar tərəfindən qəbul edilən bəzi reproduktiv hüquqların araşdırılması, məhz konstitusiya müddəalarının nəzərə alınması ilə həyata keçirilməli, müvafiq hüquq və azadlıqların məzmunu prizmasından tədqiq edilməlidir. Belə ki, Melinda Roberts və Devid Vasserman kimi nüfuzlu Qərb alimlərinin fikrincə, reproduktiv hüquqlara hər bir insanın yaşamaq hüququ, sağlamlığın qorunması hüququ, azadlıq və şəxsi toxunulmazlıq hüququ, şəxsi həyatın toxunulmazlığı, şəxsi, ailə sirrinin qorunması hüququ, həmçinin, şəxsi ləyaqətin tanınması və kişi və qadınların bərabər hüququ aiddir.

İ.V.Siluyanovanın göstərdiyi kimi, bəzi reproduktiv hüquqlar əsas hüquqlara xas olan əhəmiyyət kəsb edir. Ona görə də, onlar qanunvericiliklə təsbit olunmalı və konstitusiya müdafiəsi əldə etməlidir. İnsan və vətəndaşın reproduktiv sağlamlığı və reproduktiv hüquqlarının qorunması problemi milli təhlükəsizliyi müəyyənləşdirən dövlət siyasətinin mühüm istiqaməti olmalıdır və dövlətin üzərinə onların hüquqi təminatı öhdəliyi qoyulmalıdır.

A.N.Pişita qeyd edir ki, doğuş prosesinə müdaxilə, genetik baxımdan keyfiyyətsiz mayalanmış toxum hüceyrələrinin çıxdaş edilməsi imkanı, cinsiyyət hüceyrələri ilə manipulyasiya təhlükəsi yeni reproduktiv texnologiyalarla əlaqədar hüquqi və əxlaqi məsələləri müəyyənləşdirmişdir: bu cür praktika ilə məşğul olmaq hüququ, rüşeymin hüquqi və etik statusu, süni mayalandırmanın hüquqi və əxlaqi statusu, rüşeymlərin, toxum hüceyrələrinin, spermatozoidlərin dondurulmasının qanuniliyi, onların saxlanılma müddətləri və resipiyentlər üçün istifadəsi (toxum hüceyrələrinin, spermatozoidlərin, rüşeymlərin donorluğu), cinsiyyət hüceyrələri donorlarının hüquq və vəzifələri, surroqat analığın hüquqi və etik xüsusiyyətləri və s.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Dünyada əhalinin reproduktiv sağlamlığının pisləşməsi problemlərinə həsr olunmuş beynəlxalq konfransların (1968-ci il mayın 23-də Tehranda keçirilən İnsan Hüquqları üzrə Beynəlxalq Konfransı 1985-ci ildə Mexikoda keçirilmiş Əhali üzrə Konfrans; 1994-cü ildə Qahirədə keçirilmiş Əhali və İnkişaf üzrə Beynəlxalq Konfrans) sənədlərinin təhlili əsasında müəllif tərəfindən reproduktiv hüquqların təyinatı verilmiş, onların məzmunu və hüquqi xüsusiyyətləri ətraflı şəkildə təhlil edilmişdir.

Reproduktiv hüquqlar haqqında hərtərəfli müzakirələr ilk dəfə 1994-cü ildə Qahirədə keçirilmiş Əhali və İnkişaf üzrə Beynəlxalq Konfransda aparılmış, Qadınların Vəziyyəti üzrə IV Ümumdünya Konfransının Məruzəsində və bu konfransın qəbul etdiyi Fəaliyyət Platformasında daha da inkişaf etdirilmişdir. Qahirə konfransının bu proqramı ilk dəfə müəyyən etmişdir ki, reproduktiv hüquqlar bir sıra insan hüquqlarını əhatə edir. Bunlar artıq milli qanunvericiliklə, insan hüquqları üzrə beynəlxalq sənədlərdə tanınmışdır və ümumdünya insan hüquqlarının ayrılmaz tərkib hissəsidir.

A.Mustafayeva yazır: "Beləliklə, belə bir nəticəyə gəldik ki, insanın reproduktiv funksiyasının (reproduktiv hüquqlar) həyata keçirilməsi ilə əlaqədar hüquqlar - bunlar ər-arvadın və ayrı-ayrı şəxslərin hər hansı diskriminasiya, məcburiyyət və zorakılıq olmadan nəsilartırmaya münasibətdə sərbəst və məsuliyyətli qərar qəbul etmək, bunun üçün zəruri informasiya və vasitələrə malik olmaq, habelə, ailə planlaşdırılmasının və sonsuzluğun aradan qaldırılmasının daha səmərəli metodlarını əldə etmək hüququnu ehtiva edən reproduktiv sağlamlığın ən yüksək səviyyəsinə nailolma hüququdur. Reproduktiv hüquqlara bunlar daxildir: sərbəst reproduktiv seçim və ailə planlaşdırması hüququ; reproduktiv sağlamlığın qorunması və ailə planlaşdırması üzrə məlumat almaq hüququ; şəxsi həyata müdaxilə edilməməsi hüququ və reproduktiv sağlamlığın qorunması üzrə xidmətlər alarkən məxfilik; reproduktiv sağlamlığın qorunması məqsədilə xüsusiləşmiş tibbi yardım almaq hüququ; reproduktiv sağlamlığın qorunması və sonsuzluğun müalicəsi məqsədilə elmi tərəqqinin nailiyyətlərindən istifadə etmək hüququ; cinsiyyət hüceyrələrinin donorluğu və saxlanması hüququ; öz reproduktiv hüquqlarının müdafiəsi hüququ.

Əksər ölkələrin qanunvericilikləri kimi, Azərbaycan Respublikasının qanunvericiliyi də reproduktiv hüquqların qorunmasına münasibətdə beynəlxalq hüquqi sənədlərə bütövlükdə uyğun gəlir (Ümumdünya İnsan Hüquqları Bəyannaməsi; Qadınlara münasibətdə diskriminasiyanın bütün formalarının ləğv edilməsi haqqında Konvensiya; Uşaq hüquqları haqqında BMT Konvensiyası; İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt; Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt), Azərbaycan Respublikasının Konstitusiyası və sağlamlığın, anaların, uşaqların qorunması, ailənin sosial dəstəklənməsi üzrə xüsusi qanunvericilik aktları ilə, məqsədli proqramlarla tənzimlənir. Bu sənədlərdə vətəndaşların, o cümlədən Azərbaycan Respublikası vətəndaşlarının bir sıra hüquqları təsbit olunmuşdur. Bunlar ayrıca və ya digər hüquqlarla birgə nəzərdən keçirilə bilər və insanın reproduktiv sağlamlığının qorunmasına və reproduktiv fəaliyyətinin müdafiəsinə xidmət edir." Belə ki, Azərbaycan Respublikasının Konstitusiyasında kişilərin və qadınların ayrı-ayrı reproduktiv hüquqlarının qorunmasına yönəlmiş bir sıra maddələr vardır (Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq, ailə, analar və uşaqlar dövlətin müdafiəsi altındadırlar). Dövlət həyatının bütün sahələrində uşaqların maraq və rifahının prioritetləri uşaq hüquqları haqqında Konvensiyada təsbit edilmişdir. BMT Baş Assambleyası tərəfindən 1989-cu il noyabrın 20-də qəbul edilən bu sənəd üzrə öhdəlikləri yerinə yetirməyi Azərbaycan Respublikası da öz üzərinə götürmüşdür. Ana və uşaqların, ailənin müdafiə olunmasının konstitusiya prinsipi Azərbaycan Respublikasının qanunvericiliyində və onun subyektlərində; sağlamlığın mühafizəsi haqqında, əmək və əməyin mühafizəsi haqqında, sosail təminat haqqında, nikah və ailə haqqında, eləcə də hüququn digər sahələrinin bir sıra normalarında öz konkret ifadəsini və inkişafını tapmışdır.

Hər halda biz belə bir ümumi qənaətə gəlmişik ki, qüvvədə olan hüquqi normalar natamamdır, ortaya çıxan problemlərin yalnız ayrı-ayrı aspektlərinə toxunur, reproduktiv funksiyanın gerçəkləşməsi və reproduktiv sağlamlığın mühafizəsi üçün şərait və imkanları tam halda təmin etmir. İnsanın reproduksiyası sahəsində hüquqi münasibətləri tənzimləyən mövcud normalar növbəti strukturlaşmanı və daxili razılaşmanı tələb edən muxtar sahələrarası kompleksdir. Şübhəsiz, əhalinin reproduktiv sağlamlığına qayğı göstərilməsi dövlətin əsas sosial funksiyalarından biridir. Bunun reallaşması isə, ilk növbədə, hüquqi mexanizmlərdəki dəyişikliklərlə müşayiət olunmalıdır.

Beləliklə, insanın reproduktiv fəaliyyəti sahəsində yaranan ictimai münasibətlərin hüquqi nizamlanmasını yaxşılaşdırmaq məqsədilə vətəndaşların reproduktiv hüquqlarını təsbit edən və onların reallaşması mexanizmlərini müəyyənləşdirən yeni qanunların qəbul edilməsi və qüvvədə olan hüquqi aktların təkmilləşdirilməsi zəruridir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

# Ağstafada Ulu Öndərin 96 illiyinə həsr edilmiş futbol turniri başa çatıb




Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96 illiyi münasibətilə YAP Ağstafa rayon təşkilatının və rayon Gənclər və İdman idarəsinin birgə təşkilatçılığı ilə təşkil edilmiş futbol üzrə Ağstafa rayon çempionatına yekun vurulub. SİA-nın verdiyi məlumata görə, aprel ayının 5-dən start götürən çempionatda 18 komanda mübarizə aparırdı. May ayının 9-da gərgin idman mübarizəsi ilə keçən final oyununda Ağstafa şəhər və Poylu kənd komandaları qarşılaşıb. Oyun Poylu kənd komandasının qələbəsi ilə başa çatıb. May ayının 10-da Heydər Əliyev parkında qaliblərin mükafatlandırılması mərasimi keçirilib. Mərasimdə Ağstafa rayon İcra Hakimiyyətinin başçısı Nizaməddin Quliyev, YAP Ağstafa rayon təşkilatının sədri Ramiz Tatarov, rayon idarə-müəssisə rəhbərləri, ictimaiyyət nümayəndələri iştirak ediblər. Mərasimi YAP Ağstafa rayon təşkilatının sədri Ramiz Tatarov giriş sözü ilə açaraq qeyd edib ki, Heydər Əliyev idmanın, bədən tərbiyəsinin inkişafını hər bir sivilizasiyalı xalqın ali ideallarının təcəssümü olmaqla yanaşı, həm də dövlətin beynəlxalq nüfuz və mövqelərinin təntənəsi kimi qiymətləndirirdi.



Sonda çempionatın I, II, və III yerlərini tutmuş komandalara YAP Ağstafa rayon təşkilatının kubok, medal, diplom və qiymətli hədiyyələri təqdim edilib. Dünən həmçinin, ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü ilə əlaqədar ağacəkmə aksiyası keçirilib.



## Təbrik edirik!

Bu gün Azərbaycan Jurnalistlər Birliyinin üzvü Vidadi Suleymanovun doğum günüdür. Bu münasibətlə Vidadi müəllimi həyat yoldaşı Matan xanım, övladları Cəfərqulu, Kənan, Novruz, İlhamə, nəvələri Altay, Yusif, Elcan, Nuray, Aytac və Gülay səmimi qəlbdən təbrik edir və ona möhkəm can sağlığı, xoşbəxt illər arzu edirlər.

## ELAN

**ADPU-nun tarix ixtisası üzrə IV tələbəsi İbrahimli Toğrul Əliheydər oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

* * *

**ADPU-nun təlim sosial-psixoloji xidmət ixtisası üzrə magistrı Osmanlı Əfsanə Elçin qızının adına verilmiş magistr bileti itdiyi üçün etibarsız sayılır.**

* * *

**Kimya müəllimliyi ixtisası üzrə III kurs tələbəsi Şirməmmədova Aynur Yaşar qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

* * *

**ADPU-nun təsviri incəsənət ixtisası üzrə II kurs tələbəsi Elgarlı Aysel Rövşən qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

* * *

**ADPU-nun ibtidai təhsil fakültəsinin III kurs tələbəsi Teymurova Natavan Məmmədağa qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

# BSU-da "Heydər Əliyevin psixoloji portreti" adlı tədbir keçirilib



Dünən Bakı Slavyan Universitetində YAP Nəsimi rayon təşkilatı BSU ərazi ilk partiya təşkilatı və Pedaqoji fakültənin Pedaqogika və psixologiya kafedrasının təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş "Heydər Əliyevin psixoloji portreti" adlı tədbir keçirilib. Tədbirin əvvəlində Azərbaycanın Dövlət Himni səsləndirilib, Ümummilli Liderin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbiri giriş sözü ilə açan BSU-nun ərazi ilk partiya təşkilatının sədri Sevinc Axundova "Heydər Əliyev və Azərbaycan quruculuğu" adlı məruzə ilə çıxış edib. O, Ulu Öndər Heydər Əliyevin siyasi portretində birləşən ali dəyərləri sadalayıb, Onun Azərbaycan tarixinin keşməkeşli məqamlarında müstəqillik uğrunda yeritdiyi siyasətindən söz açıb.

Sonra YAP-a yeni üzv olan BSU əməkdaşlarına üzvlük vəsiqələri təqdim olunub.

Təqdimatdan sonra Diplomatiya və xarici siyasət kafedrasının müəllimi Oqtay Sadıqzadənin "Heydər Əliyevin daxili və xarici siyasəti" mövzusunda məruzəsi dinlənilib. O.Sadıqzadə çıxışında Ulu Öndərin neft və enerji siyasəti, onun YAP sıralarında apardığı kadr islahatı, elmin və incəsənətin Azərbaycanda inkişafı istiqamətində gördüyü işlərdən ətraflı bəhs edib. BSU ərazi ilk partiya təşkilatı gənclər birliyinin fəal nümayəndəsi Ayxan Əzizov "Heydər Əliyev - gənclərin himayədarı, uşaqların dostu" adlı məruzəsində Siyasi Lider Heydər Əliyevin Azərbaycan gənclərinə qayğısı, Onun ölkəmizdə həyata keçirdiyi gənclər siyasəti, təhsil istiqamətində apardığı islahatalar, Prezident İlham Əliyevin Heydər Əliyevin siyasi kursunun davamçısı kimi Azərbaycan gənclərinə qayğısı barədə ətraflı söz açıb.

Pedaqogika və psixologiya kafedrasının müəllimi Aygün Əliyeva "Heydər Əliyevin sözlə deməadikləri" adlı məruzəsində verbal və qeyri-verbal nitqin siyasətdə rolundan danışıb. Sonra Pedaqogika və psixologiya kafedrasının müəllimi Nisə Abdullayeva "Heydər Əliyev ailə başçısı olaraq" adlı məruzəsi ilə çıxış edib. N.Abdullayeva Heydər Əliyevin Zərifə xanım Əliyevaya bəslədiyi ülvi məhəbbətindən, Onun ailəsinə olan xüsusi qayğı və diqqətindən danışıb.

Tədbirin sonunda çıxış edən BSU-nun tədris işləri üzrə prorektoru, professor Telman Cəfərov Ümummilli Lider Heydər Əliyevin siyasi portretində Onun səmimiyyətinin əsas amil olduğunu diqqətə çatdırıb. Prorektor BSU rəhbərliyi və müəllim-tələbə kollektivinin Ümummilli Liderin ildönümü ərəfəsində Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə səfərindən, Cocuq Mərcanlı kənd tam orta məktəbində BSU-nun təşkilatçılığı ilə keçirilən Ulu Öndərə həsr olunmuş tədbirdən də söz açıb.

**ZÜMRÜD**

# Qaradağ rayon ictimaiyyəti Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünü qeyd edib



Dünən Lökbatan qəsəbəsindəki Heydər Əliyev Parkında Ulu Öndərin anadan olmasının 96-cı ildönümü ilə əlaqədar Ümummilli Lider Heydər Əliyevin abidəsi önündə əklilqoyma mərasimi keçirilib. Mərasimdə Qaradağ rayon icra hakimiyyəti başçısı Süleyman Mikayılov, Milli Məclisin deputatı, YAP Qaradağ rayon təşkilatının sədri Aydın Hüseynov, şura üzvləri və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər. İlk öncə, Qaradağ rayon icra hakimiyyəti başçısı Süleyman Mikayılov və şura üzvləri Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə əklil və gül dəstələri düzüblər. Daha sonra rayonun idarə, müəssisə və təşkilat rəhbərləri, ardıcıl olaraq mərasimə toplanmış ictimaiyyət nümayəndələri Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoymaqla, Azərbaycanın memarı və qurucusuna öz dərin ehtiramlarını bildiriblər.

**RƏFİQƏ**

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**